KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 355 Oktyabr 2016



AYLIQ DƏRGİ
ISSN 2218-2772

khazar-review.khazar.org





KHAZAR UNIVERSITY'S
40TH AND 41ST
GRADUATION CEREMONY



XƏZƏR
UNİVERSİTETİ
MƏZUNLARININ
40-cı VƏ 41-ci
BURAXILIŞ
MƏRASİMİ

# İÇİNDƏKİLƏR


Xəzər Universiteti məzunlarının 40-cı və 41-ci buraxılış mərasimi .......... 4

Beynəlxalq Müəllimlər Günü qeyd edildi.......................... 12

Universitet xəbərləri ........................................ 15

"Dünya" xəbərləri ............................................ 20

*Lalə Musaqızı.* Təşəbbüskar olmaq lazımdır.......................... 30

"Azərbaycan mühacirət ədəbiyyatı: problemlər, vəzifələr" mövzusunda ikinci Beynəlxalq elmi konfrans ...................................... 34

"Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının təqdimatı .......... 36

Amerikalı ifaçı Ceffri Verbukun "Xəzər"də solo konserti ................ 38

Nobel mükafatı laureatları-2016.................................. 42

NDU xəbərləri ............................................... 46

*Cavid Zeynallı.* "Azərbaycanı tanımasaydım, adi ömür yaşayacaqdım" ..... 48

*Ozan Varol.* I'ma a Muslim Immigrant and I Have Faith in America........ 56

*Jocelyn K. Glei.* Why We're Addicted to Email-and What to Do About It .... 60

Məmməd Araz poeziya günü .................................... 64

*Sarah Perry.* The Simple Trick that Helped Me Balance Motherhood and My Carrer ............................................. 66

*Umberto Eko.* Babil söhbəti....................................... 75



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Marta Louri

Rəssam:
Mir Rafiq Əbdülrəhimov

Kompüter tərtibatçısı:
Sevinc Şəfiyeva

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ
1991
BAKI

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial members:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Martha Lowry

Design by:
Mir Rafig Abdulrahimov

Computer graphics:
Sevinc Shafiyeva

Photo:
Multimedia Centre



# XƏZƏR UNİVERSİTETİ MƏZUNLARININ 40-CI VƏ 41-Cİ BURAXILIŞ MƏRASİMİ

Oktyabrın 15-də Bakı Musiqi Akademiyasının Opera Studiyasında Xəzər Universiteti məzunlarının 40-cı və 41-ci buraxılış mərasimi keçirildi. Mərasimdə universitetin rəhbərliyi, professor-müəllim heyəti, tələbələr, valideynlər və qonaqlar iştirak edirdilər. Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlandı.

Xəzər Universitetinin rektoru Hassan Niknafs məzunları təbrik edərək, yeni həyat yollarında onlara uğurlar arzuladı.

Qeyd olundu ki, 25 il ərzində universiteti, bugünkü məzunlar da daxil olmaqla (293 bakalavr, 42 magistr), 2944 bakalavr, 616 magistr bitirmişdir. Onlardan 767-si fərqlənmə diplomu almışdır.

Xəzər Universitetinin keçdiyi yol və fəaliyyəti haqqında slayd-şou nümayiş etdiriləndən sonra universitetin rəhbərliyi adından məzunlara ünvanlanan məktub tədbirin aparıcıları tərəfindən oxundu.

Xəzər Universitetinin Məzun Assosiasiyasının prezidenti, "Bank of Baku" ASC İdarə Heyəti sədrinin müavini Eldar Həmidov çıxış edərək bildirdi ki, aldıqları təhsil, qazandıqları bilik və bacarıqlar "Xəzər"in məzunlarına seçdikləri sahədə uğur qazanmalarına zəmin yaradır. Onlar dövlət qurumlarında, özəl şirkətlərdə çalışır, böyük layihələrə, yeniliklərə imza atırlar, xeyli hissəsi öz işlərini qururlar.

Valideynlər adından Elşən Zeynalov çıxış edərək, universitetin rəhbərliyinə və müəllim kol-





lektivinə minnətdarlığını bildirdi.

Sonra məzunlara diplomların təqdim olunması mərasimi başlandı. Diplomları Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Hassan Niknafs, prorektorlar Məhəmməd Nuriyev və İsaxan İsaxanlı, dekanlar və departament müdirləri, müəllimlər təqdim etdilər. Diplomları təqdim edənlər arasında universitetin veteranı Nanə xanım Kələntərli də vardı. O, çıxış edərək universitetdə fəaliyyətini başa vurduğunu söylədi və universitet rəhbərliyinə, doğma kollektivə uzun illər ərzində birgə fəaliyyətə görə minnətdarlığını bildirdi. Hamlet İsaxanlı Nanə xanımın universitetdəki əməyini yüksək qiymətləndirdi və ona təşəkkür etdi.

Diplomlar təqdim olunandan sonra məzunlar Xəzər Universitetinin andını söylədilər və xatirə şəkilləri çəkdirdilər.

Professor Hamlet İsaxanlı mərasimdə çıxış etdi. O, universitetdə yaradılmış əlverişli təhsil mühitindən, yalnız yüksək keyfiyyətli mütəxəssislər yox, eyni zamanda hərtərəfli inkişaf etmiş gənc nəsil yetişdirilməsindən, professor-müəllim heyətinin gərgin və səmərəli işindən, universitetin dünyanın aparıcı ali məktəbləri ilə hərtərəfli əlaqələrindən, maddi-texniki bazanın daim genişlənməkdə olmasından və "Xəzər"in beynəlxalq təşkilatların reytinq cədvəllərində daim fərqlənərək, Azər-







baycan universitetləri arasında birinci yeri tutmasından, həmçinin universitetin gələcəkdə həyata keçirəcəyi tədbirlərdən ətraflı bəhs etdi.

Mərasim universitetin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı ilə başa çatdı. Konsertdə departament müdiri, pianoçu, dosent Zülfiyyə Sadıqova, M. F. Axundov adına Akademik Opera və Balet Teatrının solisti, əməkdar artist, Xəzər universitetinin müəllimi Fərid Əliyev, M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti, Çaykovski adına Moskva Konservatoriyasının magistrantı, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova, universitetin tələbə qız-







lardan və oğlanlardan ibarət rəqs qrupları (baletmeysterlər – Xəzər Universitetinin müəllimləri Səbinə İsmayılova və əməkdar artist Telman Əliyev), universitetin rəqs ansamblı iştirak etdilər.





# KHAZAR UNIVERSITY'S 40TH AND 41ST GRADUATION CEREMONY



On October 15, a graduation ceremony for Khazar University's 40th and 41st classes was held at the Opera Studio of Baku Music Academy. The university administration, faculty, staff, students, parents and visitors attended the event. The ceremony began with the National Hymn of the Azerbaijan Republic.

Dr. Hassan Niknafs, President of Khazar University, congratulated the graduates and wished them success in their future lives.

In Khazar University's 25-year history, it has graduated 2944 bachelors and 616 master's students (including the 293 bachelors and 42 master's students graduating today). Of those, 767 earned honors diplomas.

A slideshow about Khazar University's history was shown, followed by the reading of a thank-you letter from the graduating class to the university administration.

Then Eldar Hamidov, President of Khazar University Alumni Association and Deputy Chairman of the Bank of Baku JSC Executive Board, gave a speech in which he noted that the education and skills attained at Khazar University



create opportunities for them to achieve success in their careers. Graduates work in government positions and private companies; they drive change and many of them establish their own companies.



On behalf of parents, Elshan Zeynalov made a speech to thank the university administration and faculty.

Then diplomas were presented to graduates by Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Dr. Hasan Niknafs, President of the University; Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs; Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; deans of schools; chairs of departments; and instructors presented diplomas. University veteran Nana Kalantarli also participated in handing out diplomas. She made a speech announcing that she was ending her service to the university and thanking the university collective. Hamlet Isaxanli highly appraised Nana Kalantarli's work and thanked her.

After diplomas were presented, graduates took the Khazar University oath and took group pictures.





Professor Hamlet Isaxanli made a speech about the favorable educational environment at the university, saying that it not only prepares high-quality specialists, but also raises up a well-rounded young generation. The university distinguishes itself on international rankings and constantly takes first place among Azerbaijani universities because of its hard-working staff, extended network of international partnerships with leading world universities, and constant improvement of its facilities. He also spoke about the university's future plans.

The ceremony ended with a performance of the university's Department of Music and Fine Arts. The concert included performances by Associate Professor Zulfiyya Sadigova, Department Chair and piano soloist; Meritorious Artist Farid Aliyev, soloist for the M.F. Akhundov Academic Opera and Ballet Theater; Mahsati Jabbarova, master's student of Tchaikovsky Moscow Conservatory, soloist for M.Magomayev Azerbaijan State Philharmonic and Khazar University instructor; boys' and girls' student dance groups (directed by Khazar University instructors Sabina Ismayilova and Meritorious Artist Telman Aliyev) and the university's dance ensemble.



# KHAZAR UNIVERSITY'S 40TH AND 41ST GRADUATION CEREMONY





# BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜ QEYD EDİLDİ



***5 oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə oktyabrın 4-də "Dünya" məktəbinin konfrans salonunda Binəqədi Rayon İcra Hakimiyyəti, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Binəqədi rayon komitəsi və "Dünya" məktəbinin birlikdə hazırladıqları bayram tədbiri keçirildi***

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Binəqədi rayon "Ziyalılar" cəmiyyətinin sədri Asəf Zamanov, Azərbaycanın teatr və kino aktyoru, xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının yaradıcılıq üzrə sədr müavini Hacı İsmayılov, "Dünya" məktəbinin kollektivi, Binəqədi rayonunda fəaliyyət göstərən məktəb və uşaq bağçalarının müəllim-rəhbər heyəti, Yeni Azərbaycan



Partiyasının fəal gəncləri iştirak edirdilər.

Tədbirdə çıxış edən professor Hamlet İsaxanlı bu gün Azərbaycanda böyük müəllim ordusunun yarandığını qeyd etdi. Bildirdi ki, demək olar hər bir ailə şagird - müəllim münasibətləri ilə məktəbə bağlıdır. Müəllimin cəmiyyət həyatında mühüm rolundan danışan natiq müəllimliyin dünyada ən şərəfli peşə olduğunu, bu gün dünyanın hər yerində müəllimlərə xüsusi qayğı göstərildiyini, ölkəmizdə də müəllimlərin rifahının daha da yaxşılaşdırılması üçün xüsusi tədbirlər planı hazırlan-dığını qeyd etdi.

Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə çıxışında bildirdi ki, bu gün respublikada təhsil işçilərinin normal şəraitdə işləməsi, onların sosial müdafiəsinin gücləndirilməsi üçün tədbirlər görülür. O, həmçinin, harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, hər kəsin müəllimlərə qayğı və diqqət göstərməsinin zəruriliyini qeyd etdi.

Tədbirdə müəllimləri təbrik edən Bakı şəhəri üzrə Təhsil İdarəsi müdirinin müavini Hüseyn Əsgərov bildirdi ki, hər şeyin elmə-təhsilə söykəndiyi indiki dünyada Azərbaycan dövlətinin gücü, qüdrəti müəllimlərin gücündə və qüdrətindədir. O, eyni zamanda, bu gün Azərbaycanda güclü müəllim ordusunun formalaşdığını da vurğuladı.

Xalq artisti Hacı İsmayılovun çıxışı iştirakçılar üçün











yaddaqalan oldu. Aktyor oynadığı müəllim obrazları haqqında danışdı, orta məktəb illərini xatırladı, bütün cəmiyyətimizə, xalqımıza birlik arzuladı. Çıxışının sonunda müəllimləri təbrik edən natiq onların qarşısında baş əydi.

Binəqədi Rayon İcra Hakimiyyəti adından müəllimləri təbrik edən Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva son illər bir sıra sahələrdə olduğu kimi, ölkədə təhsil sahəsində də yaddaqalan uğurlar əldə edildiyini bildirdi. Aygün Əliyeva vurğuladı ki, Azərbaycanda yeni gənc nəslin yetişməsi və tərbiyə olunmasında təhsilin, məktəbin əhəmiyyəti, rolu çox böyükdür və bütün bu uğurlar Prezident İlham Əliyevin təhsil sahəsində apardığı siyasətin məqsədyönlülüyünün bariz sübutudur.

Tədbirdə Xəzər Universitetinin Kamera orkestri konsert proqramı ilə çıxış etdi.







# ELMİ ŞURANIN İCLASI

Oktyabrın 5-də Xəzər Universitetinin rektoru Hassan Niknafsın sədrliyi ilə universitet elmi şurasının növbəti iclası keçirildi. İclasın gündəliyinə əsasən Elmi Şuranın tərkibi və yeni dərs ilində tədrisin təşkili haqqında prorektor Məhəmməd Nuriyevin, məzunlar haqqında fakültə dekanları İnqilab Əhmədov (İqtisadiyyat və menecment), Cabir Xəlilov (Humanitar və sosial elmlər), Elza Səmədova (Təhsil) və dekan müavini Vəfa Aslanovanın (Mühəndislik və tətbiqi elmlər), Dillər və mədəniyyətlər departamentinin müdiri, ilahiyyat elmləri üzrə fəlsəfə doktoru Elnurə Əzizovaya dosent elmi adının verilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması haqqında Magistratura, Doktorantura və Elmi İşlər bölməsinin müdiri Eldar Şahgəldiyevin məlumatları dinlənildi və müvafiq qərarlar qəbul edildi.

Elmi Şuranın iclasında 2015-2016-cı tədris ilinin nəticələrinə əsasən səmərəli və məsuliyyətli fəaliyyətlərinə görə universitetin bir qrup müəllim və inzibati işçisi – Firəngiz Nəsirova, Könül Məhyəddinova, Ceyhun Məmmədov, Əli Hü-seynli, Lamiyə Namazova, Lyudmila Sotova və Turan Cəfərova təşəkkürnamə və pul mükafatı ilə təltif olundular.

İclasda cari məsələlər də müzakirə edildi.







# İNDONEZİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Oktyabrın 10-da İndoneziyanın Azərbaycandakı səfiri Dr. H. Husnan Bey Fananie Xəzər Universitetində bir sıra görüşlər keçirdi. İndoneziya səfirliyi nümayəndəliyinin tərkibinə birinci katib Anggraeni Widiastuti və böyük inzibati köməkçi Pərvanə Kərimova daxil idi.

Xəzər Universitetini isə universitetin rektoru Dr. Hassan Niknafs, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. İnqilab Əhmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı dosent Cabir Xəlilov və Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova təmsil edirdilər.

Səfir İndoneziyanın mədəniyyəti, iqtisadiyyatı və təhsil sistemi haqqında danışdı. O, görüş iştirakçılarına İndoneziya hökumətinin azərbaycanlı tələbələr üçün təklif etidyi təqaüd imkanları haqqında məlumat verdi. Dr. Fananie Xəzər Universitetinə indoneziyalı tələbələrə verdiyi təqaüdlərə görə təşəkkür etdi. Hazırda Xəzər Universitetində universitetin Beynəlxalq Tələbə Təqaüd Proqramı çərçivəsində iki indoneziyalı tələbə təhsil alır.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs universitetin tarixi, təklif etdiyi ixtisaslar, universitetin resursları, laboratoriyaları, tədqiqat imkanları və başqa aspektlərdən danışdı. O, həm də universitetin yeni açılmış yataqxanası haqqında görüş iştirakçılarına məlumat verdi. Turan Cəfərova qeyd etdi ki, universitet İndoneziya ilə əlaqələri möhkəmləndirməkdə və oradan yeni tələbələr cəlb etməkdə maraqlıdır.

İndoneizya səfiri universitetin rektoruna xatirə hədiyyəsi verdi. Səfirlikdən gələn qonaqlara Xəzər Universitetinin məlumat materialları paylandı.

# AMBASSADOR OF INDONESIA VISITS KHAZAR UNIVERSITY

On October 10, the Ambassador of Indonesia to the Azerbaijan Republic, Dr. H. Husnan Bey Fananie, visited Khazar University to meet with the university administration. Participants from the Embassy of Indonesia also included Ms. Anggraeni Widiastuti, the first secretary, and Ms. Parvana Karimova, senior administrative assistant. The meeting was held on the university's Neftchilar campus.

Khazar University was represented by Dr. Hassan Niknafs, President; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Dr. Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; and Ms. Turan Jafarova, Director of the International Affairs Office.

The Ambassador spoke about Indonesia, its culture, economy, and education system. He informed the meeting participants about scholarship opportunities provided by the Indonesian Government to Azerbaijani students. Dr. Fananie expressed his gratitude to Khazar University for the scholarships it provides to Indonesian citizens. Currently, two students from Indonesia study at Khazar University through the Khazar University International Scholarship Program.

President of Khazar University, Dr. Hassan Niknafs, spoke about the history of Khazar University, its schools, programs, resources, laboratories, research capacity and other important academic aspects. He also provided information about the dormitory of the university that was recently opened. Ms. Turan Jafarova emphasized that the university was interested in attracting more students from Indonesia and in strengthening cooperation with universities in Indonesia.

The Ambassador of Indonesia presented a memorable gift to the President. A promotional package of Khazar University was also presented to the representatives of the embassy.





# REKTOR XARİCİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

Oktyabrın 11-də Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs 2016-17-ci tədris ilində bakalavr pilləsi üzrə qəbul olunmuş xarici tələbələrlə görüşdü. Görüşdə Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfarova və koordinatoru Günay Fərzəliyeva iştirak edirdilər. Beynəxalq əlaqələr şöbəsinin təşkil etdiyi görüş universitetin "Neftçilər" kampusunda keçirildi.

Tələbələri salamlayan Dr. Hassan Niknafs görüşü tələbələrin tədris planı ilə bağlı mühüm məsələlərin müzakirəsi ilə başladı. Tələbələr də təhsillə bağlı onları narahat edən məsələləri universitet rəhbərliyi ilə bölüşdülər. Turan Cəfərova tələbələrə yaxın günlərdə onlarla məlumat məzmunlu görüşün keçiriləcəyi barədə məlumat verdi.

Qeyd edək ki, cari tədris ilində Xəzər Universitetinə Əfqanıstan, Kamerun, Qambiya, İran, İraq və Zimbabvedən bakalavr pilləsi üzrə təhsil almaq üçün tələbələr qəbul olunmuşlar.

# PRESIDENT MEETS WITH INTERNATIONAL STUDENTS

On October 11, Dr. Hassan Niknafs, President of Khazar University, met with new international undergraduate students who had been accepted to Khazar University in the 2016-2017 academic year. Meeting participants included Prof. Mahammad Nuriyev, Vice President for Academic Affairs; Turan Jafarova, Director of the International Affairs Office; Gunay Farzaliyeva, Coordinator at International Affairs Office. The meeting was organized by the International Affairs Office and took place on the university's Neftchilar campus.

Dr. Hassan Niknafs welcomed the students and opened the meeting by giving important information regarding students' academic programs at Khazar University. Students shared their academic concerns with the university administration. Turan Jafarova informed the students about the upcoming orientation session which is organized for all new international students.

In the current academic year, Khazar University accepted undergraduate students from Afghanistan, Cameroon, Gambia, Iran, Iraq, and Zimbabwe.

## HAMLET İSAXANLI 184 SAYLI MƏKTƏBDƏ GÖRÜŞ KEÇİRDİ

Oktyabrın 15-də Xəzər Universitetinin "Potensial məktəb direktorları" kursunu uğurla başa vurmuş və 184 saylı məktəbə direktor vəzifəsinə təyin olunmuş Rəşad Alcanovun dəvəti ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor H. İsaxanlı və Təhsil fakültəsinin dekanı, fəlsəfə doktoru Elza Səmədli "Məktəb-universitet əməkdaşlığı" layihəsi çərçivəsində Müstəqillik Günü münasibətilə məktəbdə keçirilən bayram tədbirində iştirak etdilər. Tədbirdə çıxış edən professor Hamlet İsaxanlı Azərbaycan xalqının müstəqillik tarixindən maraqlı faktlara diqqət çəkərək, 1991-ci il oktyabrın 18-də Azərbaycanın yenidən müstəqilliyini bərpa etməsindən danışdı, verdiyi nümunələrlə müstəqilliyin önəmini vurğuladı.

Şagirdlərin hazırladığı vətənpərvərlik ruhlu müxtəlif çıxışlarla davam edən tədbirin sonunda H. İsaxanlıya 184 saylı məktəbə göstərdiyi diqqət və dəstəyə görə plaket təqdim olundu.

Professor da öz kitablarını və Universiteti simvolizə edən müxtəlif hədiyyələri 184 saylı məktəbə bağışladı və Xəzər Universitetinin hər zaman təhsilin inkişafına dəstək verməyə hazır olduğunu qeyd etdi.

## HAMLET ISAXANLI VISITS SCHOOL NUMBER 184

On October 15, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Dr. Elza Semedli, Dean of the School of Education, visited School number 184 by the invitation of Rashad Aljanov, who has newly been appointed Director of the school and who graduated from the course for Potential School Directors at Khazar University. They participated in the October 18- Independence Day program put on by students as part of the School-University Cooperation project. Hamlet Isaxanli made a speech at the event about interesting facts in the history of independence of the Azerbaijani people and the restoration of Azerbaijani independence on October 18, 1991, citing examples to show the importance of independence. The event continued with various patriotic presentations by students. At the end, they presented a thank-you plaque to Hamlet Isaxanli for his attention to the school and participation in the event.

Professor Isaxanli also presented his own books and several Khazar University gifts to the school and noted that Khazar University would always be ready to provide support to the education of the school.





## "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDLƏRİ "TULLANTIDAN SƏNƏTƏ" BEYNƏLXALQ SƏRGİSİNDƏ

Oktyabrın 12-də "Dünya" məktəbinin IV sinif şagirdləri Qala qəsəbəsində "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda V Beynəlxalq "Tullantıdan sənətə" sərgisində iştirak etdilər.

Məişət tullantılarından, lazımsız əşyalardan istifadə olunaraq hazırlanmış sənət əsərlərinin təqdim edildiyi sərgidə 8 ölkədən 25 incəsənət nümayəndəsinin əl işləri nümayiş olunurdu. Sərginin əsas məqsədi əhaliyə ətraf mühiti təmiz saxlamağın vacibliyini aşılamaq, onları lazımsız saydıqları əşyaları düşünmədən zibil qutularına atmaq vərdişlərindən çəkindirməkdir.

Qeyd edək ki, "Tullantıdan sənətə" sərgisi 2010-cu ildən etibarən Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Təmiz şəhər" ASC-nin Qala qəsəbəsində həyata keçirdiyi "Təmiz Qala" adlı pilot layihə çərçivəsində təşkil olunur. 2015-ci ildən etibarən Qalada "Tullantıdan sənətə" muzeyi də fəaliyyət göstərir.

## DUNYA PUPILS PARTICIPATE IN TRASH TO ART EXHIBITION

On October 12, pupils from Khazar University's affiliate Dunya School participated in the V International "Trash to Art" Exhibition at Gala State Historical and Ethnographic Preserve.

The exhibition displayed 25 works of art from 8 countries that had been made from household garbage and objects that were no longer needed. The main objective of the exhibition was to teach people the importance of keeping the environment clean and break them of the habit of putting unnecessary things into the trash can without thinking.

The "Trash to Art" Exhibition has been carried out since 2010 as part of the "Clean Gala" pilot project initiated by the Heydar Aliyev Foundation and "Clean City" Joint Stock Company. A "Trash to Art" museum has also been operating in Gala since 2015.





# "YENİDƏN DOĞAN GÜNƏŞ" ADLI TƏDBR KEÇİRİLDİ

Oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü münasibətilə "Dünya" məktəbində "Yenidən doğan günəş" adlı silsilə tədbirlər keçirildi.

Tədbirlər öncə şagird və müəllimlərin Ümummilli Lider Heydər Əliyev muzeyi və Azərbaycan "İstiqlal" muzeyinə ekskursiyaları ilə başlandı. Eyni zamanda, məktəb kitabxanasında xüsusi sərgi və şagirdlərin əl işlərindən, rəsmlərindən ibarət incəsənət sərgisi nümayiş etdirildi. Radio qovşağından Azərbaycana həsr olunmuş şeirlər və musiqilər səsləndirildi.

Bu tədbirlər sırasında siniflər üzrə dövlət müstəqilliyinin 25 illiyinə həsr olunmuş mövzularda sinif saatlarının keçirilməsi xüsusi əhəmiyyət daşıyırdı.

Həftə ərzində keçirilən silsilə tədbirlərin yekunu olaraq, məktəbin konsert salonunda şagirdlərin və müəllimlərin iştirakı ilə təntənəli tədbir təşkil edildi. Tədbirdə tarixçi müəllimlər Azərbaycanın yaxın keçmişindən bəhs etdilər və Müstəqillik Gününün tarixindən söhbət açaraq iştirakçıları məlumatlandırdılar.

Məktəbin Azərbaycan, rus, ingilis bölmələrinin şagirdləri hər üç dildə xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeirini və digər poeziya nümunələrindən parçalar səsləndirdilər.

Müstəqillik haqqında videofilm nümayiş etdirildikdən sonra tədbir şagirdlərin milli rəqsi ilə başa çatdı.

# THE REBIRTH OF THE SUN EVENT AT DUNYA SCHOOL

On October 18, Khazar University's affiliate Dunya School held a series of events entitled "The Rebirth of the Sun" to celebrate October 18-Independence Day of the Azerbaijan Republic.

The events began with student and staff field trips to the National Leader Heydar Aliyev Museum and Azerbaijani Independence Museum. The school library also opened an exhibit of students' artwork. The school played patriotic poems and songs over the intercom.

Students also had special classes during the week to discuss the 25th anniversary of our country's independence.

At the end of the week, a large assembly was held in the school's auditorium for students and teachers. History teachers spoke about Azerbaijan's recent history and about the history of Independence Day.

Students from Azerbaijani, Russian, and English sectors recited Semed Vurghun's poem "Azerbaijan" and other poems in three languages.

A short video about independence was shown, and the students ended the assembly with a national dance.





# TƏLƏBƏ MƏCLİSİNDƏ BİRİNCİ KURS TƏLƏBƏLƏRİ İLƏ TANIŞLIQ

**Oktyabrın 1-də Xəzər Universiteti Tələbə Məclisi tanışlıq məqsədi ilə birinci kurs tələbələri ilə görüş təşkil etdi. 2016-2017-ci tədris ili üçün Tələbə Məclisinin prezidenti Qurban Əsgərov və onun müavinləri 3 fakültəni (Mühəndislik və tətbiqi elmlər, Humanitar və sosial elmlər, Təhsil) təmsil edən 200-ə yaxın tələbə ilə görüşdə Tələbə Məclisinin fəaliyyəti barədə danışdılar. Sonra tədbirin təşkilatçıları tələbələrin çoxsaylı suallarına da cavab verdilər.**

**Sonda irad və təkliflərini bildirmək üçün birinci kurs tələbələrinə anketlər paylandı.**

## GƏNCƏ AVRO-ATLANTİK MƏLUMAT MƏRKƏZİNİN SƏDRİ KARYERA MƏRKƏZİNDƏ

Oktyabrın 3-də Xəzər Universiteti Karyera mərkəzi Gəncə Avro-Atlantik Məlumat Mərkəzinin sədri Mehman Xəlilovla görüş təşkil etdi. Görüşdə Karyera Mərkəzinin koordinatoru Ülviyyə Hüseynova və Əlilliyi olan tələbələr üçün mərkəzin koordinatoru Rima Məmmədova iştirak edirdilər. Görüşdə Gəncə şəhərində 9-11-ci sinif şagirdləri üçün "Uğurlu kariyeranın inkişafı" forumundan söhbət açıldı. Eyni zamanda, müxtəlif sahələr üzrə əməkdaşlıq qurulmasından bəhs edildi. M. Xəlilov Xəzər Universiteti Karyera Mərkəzinin fəaliyyəti ilə də tanış oldu.

## CAREER CENTER HOLDS MEETING WITH GANJA EURO-ATLANTIC INFORMATION CENTER

On October 3, the Khazar University Career Center held a meeting with Mehman Khalilov, Chairman of the Ganja Euro-Atlantic Information Center. Ulviyya Huseynova, coordinator of the Career Center, and Rima Mammadova, Coordinator of the Center for Students with Disabilities, participated in the meeting. They discussed the "Successful Career Development" forum for 9th to 11th grade students in Ganja as well as other opportunities for partnership. Mehman Khalilov, Chairman of the Ganja Euro-Atlantic Information Center, was also acquainted with the activities of the



# DAAD-ın XƏZƏR UNİVERSİTETİNDƏ TƏQDİMATI



DAAD Deutscher Akademischer Austausch Dienst German Academic Exchange Service

XƏZƏR UNİVERSİTETİ BAKI 1991 KHAZAR UNIVERSITY ALWAYS LEADING THE WAY

Oktyabrın 4-də Xəzər Universitetinin "Neftçilər" kampusunda DAAD (Alman Akademik Mübadilə Servisi) proqramları ilə bağlı təqdimat keçirildi.

Təqdimatı DAAD Bakı informasiya mərkəzinin nümayəndəsi Rəna Həsənoav apardı. R.Həsənova DAAD haqqında ümumi məlumat verdi və Almaniyada bakalavr, magistr, doktorantura proqramları üzrə təhsil imkanları, eləcə də, alman dili yay kursları üçün mövcud təqaüdlərdən danışdı. Təqdimat auditoriyanın suallarının cavablandırılması ilə başa çatdı.

Təqdimtadan sonra Rəna Həsənova Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova ilə görüşdü. Almaniya universitetləri ilə əməkdaşlıq, universitetin inzibati və akademik işçiləri üçün mümkün maliyyələşdirmə və təqaüd imkanları və digər mövzular müzakirə olundu.

DAAD dünyada tələbə və tədqiqatçıların maliyyələşdirilməsi ilə məşğul olan ən böyük təşkilatlardan biridir. DAAD-ın Azərbaycanda ən böyük hədəflərindən biri beynəxalq tələbə və tədqiqatçı mübadiləsini artırmaq və informasiya prosesini gücləndirməkdir

# DAAD PRESENTATION AT KHAZAR



On October 4, a presentation about DAAD (German Academic Exchange Service) programs was held at the Neftchilar campus of Khazar University.

The presentation was conducted by Rena Hasanova, representative of the DAAD Information Centre Baku. Ms. Hasanova spoke about DAAD, studying in Germany, and scholarships available for bachelor, master and doctorate students as well as about summer German language courses. The presentation ended with a question and answer session.

Following the presentation, Ms. Hasanova met with Ms. Turan Jafarova, Director of the International Affairs Office. Topics discussed in the meeting included cooperation with German universities, opportunities available for academic and administrative staff, funding and scholarship opportunities.

DAAD is one of the largest funding organizations in the world supporting international exchange of students and scholars. The main goal of DAAD in Azerbaijan is to promote international exchange, provide information, and award scholarships to students and scholars.

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI BEYNƏLXALQ SİMPOZİUMDA İŞTİRAK ETDİ




Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Araz Aşlanlı Ankara şəhərində oktyabrın 6-7-də keçirilən "Müstəqilliyinin 25-ci ilində Türk respublikaları" adlı beynəlxalq simpoziumda iştirak etmişdir.

Tədbirin təşkilatçıları və dəstəkçiləri arasında Ahmet Yesevi Universiteti, Türk Keneşi, International Turkic Academy, TÜRKPA, TÜRKSOY, TİKA, Türk Tarix Qurumu, Ankara Siyasi və İqtisadi Araşdırmalar Mərkəzi də yer alırdı.

Tədbirin açılış panelində Türkiyə Prezident Aparatı sədrinin müavini və Prezidentin Mətbuat katibi İbrahim Kalın, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan respublikalarının Türkiyədəki səfirləri, Türkiyə Prezidentinin Baş müşaviri Yalçın Topçu, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva və digərləri çıxış etmişlər.

Tarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlı tədbirdə "Qarabağ probleminin həll olunmamasının səbəbləri və nəticələri" adlı məruzə ilə çıxış etmişdir. Məruzədə Qarabağ probleminin yaranmasının və həll olunmadan qalmasının səbəbləri izah edilmiş, problemin Azərbaycan, region və dünya üçün yaratdığı mənfi nəticələr və risklər barədə məlumat verilmişdir.

# INSTRUCTOR OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT AT INTERNATIONAL SYMPOSIUM

On October 6-7, Araz Aslanli, instructor of the Department of History and Archeology at Khazar University, participated in the "Turkish Republics in the 25th Year of Independence" International Symposium in Ankara.

The organizers and supporters of the event included Ahmet Yesevi University, Turkic council, International Turkic Academy, TÜRKPA, TÜRKSOY, TİKA, Turkish Historical Society, and The Ankara Center for Political and Economic Research.

At the opening ceremony of the symposium, speeches were made by Ibrahim Kalin, Deputy Chairman of the Turkish Presidential Administration and Press Secretary of the President; Ambassadors to Turkey of Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Uzbekistan and Turkmenistan; Yalcin Topcu, Senior Advisor to the President of Turkey; Gunay Efendiyeva, President of the Turkish Cultural and Heritage Foundation; and others.

Araz Aslanli, instructor of the Department of History and Archeology, gave a lecture entitled "Causes and Effects of the Lack of Resolution of the Karabakh Conflict" in which he explained reasons why the problem remains unresolved and detailed the negative consequences and risks of the conflict for the region and the world.

## DÖVLƏT MİQRASİYA XİDMƏTİNDƏ GÖRÜŞ

Oktyabrın 6-da yerli universitetlərin beynəlxalq şöbələrinin əməkdaşları üçün Azərbaycan Dövlət Miqrasiya Xidmətində görüş təşkil olundu.

Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin assistenti Elxan Qasımov həmin görüşdə iştirak etdi. Görüşdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində vacib məsələlər müzakirə olundu.

## ANNUAL MEETING AT STATE MIGRATION SERVICE

On October 6, a meeting for the representatives of International Affairs Offices of local universities organized annually by the State Migration Service of Azerbaijan Republic was held.

Elkhan Kasimov, assistant of the International Affairs Office of Khazar University who is in charge of migration issues, participated in the meeting. Important topics concerning foreigners and stateless persons in Azerbaijan were covered.

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI VERGİLƏR NAZİRLİYİNİN DƏYİRMİ MASASINDA

Oktyabrın 7-də Dövlətin vergi siyasətinin həyata keçirilməsinin, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasının təmin edilməsi istiqamətində fəaliyyətin səmərəliliyinin artırılması, vergi sahəsində kadrların hazırlanması və s. həyata keçirilməli tədbirlər barədə müzakirələrin aparılması məqsədilə Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində "Vergi sahəsində kadır hazırlığı: problemlər və perspektivlər" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə Xəzər Universitetinin professoru Fuat Rəsulov da iştirak etmişdir.

Fuat Rəsulovun "Maliyyə-vergi sahəsində kadr hazırlığı prosesində nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi" mövzusunda çıxışı həm təşkilatçılar, həm də iştirakçılar tərəfindən yüksək qiymətləndirilmişdir.

## MÜHƏNDİSLİK VƏ TƏTBİQİ ELMLƏR FAKÜLTƏSİNƏ YENİ MÜƏLLİMLƏR CƏLB OLUNUB



Xəzər Universiteti və Şəhid Mədəni Universiteti (İran İslam Respublikası) arasında bağlanmış anlaşma memarandumuna əsasən Şəhid Mədəni Universitetinin iki dosenti Nacer Farajzadeh və Amir Hassani Karbasi bir semester ərzində Xəzər Universiteti ilə əməkdaşlıq edəcəklər. Nacer Farajzadeh kompüter elmləri və kompüter mühəndisliyi ixtisasının tələbələrinə müasir obyekt-yönümlü proqramlaşdırma (Advanced Object Oriented Programming) və əməliyyat sistemi (Operating System) fənlərini, Amir Hassani Karbasi isə kompüter elmlərində müasir mövzular (Advanced Topics in Computer Science) və məlumatın (verilənlərin) strukturu (Data Structure) fənlərini tədris edəcəklər.

Amir Hassani Karbasi Gilan Universitetinin, Nacer Farajzadeh isə Zhejiang Universitetinin doktaranturasını bitirmişlər.

## NEW INSTRUCTORS IN SCHOOL OF ENGINEERING AND APPLIED SCIENCE

Two associate professors from Shahid Madani University, Najer Farajzadeh and Amir Hassani Karbasi, will work with Khazar University this semester as part of an MOU between Khazar University and Shahid Madani University. Najer Farajzadeh will teach Advanced Object Oriented Programming and Operating System courses to Computer Science and Computer Engineering majors, while Amir Hassani Karbasi will teach Advanced Topics in Computer Science and Data Structure. Amir Hassani Karbasi holds a PhD from Gilan University, and Najer Farajzadeh holds a PhD from Zhejiang University.

# ESFIDIP LAYİHƏSİ: TƏLƏBƏLƏR VƏ ƏMƏKDAŞLAR ÜÇÜN TƏLİM-SEMİNARLAR

Oktyabrın 11-də "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) Tempus layihəsi çərçivəsində Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin tələbələri üçün təlim-seminar keçirildi.

Təlim-seminar zamanı Xəzər Universiteti Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru Rima Məmmədova tələbələrə əlillik, əlilliyi olan tələbələrlə etik davranış və düzgün ünsiyyət, inkluziv təhsil, ESFIDIP Tempus layihəsi, Əlilliyi olan Tələbələr üçün Mərkəz və könüllülük haqqında geniş məlumat verdi.

Oktyabrın 13-də Təhsil fakültəsinin, 18-də Mühəndislik və tətbiqi elmlər, İqtisadiyyat və menecment fakültələrinin tələbələri, 21-də isə universitet əməkdaşları üçün eyni mövzuda təlim-seminarlar keçirildi.

# ESFIDIP PROJECT: TRAINING SEMINARS FOR STAFF MEMBERS AND STUDENTS

On October 11, a training seminar was held for Khazar University students of the School of Humanities and Social Sciences as part of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) Tempus project. During the training, Rima Mammadova, coordinator of the Center for Students with Disabilities at Khazar University, spoke about disabilities, ethical treatment of students with disabilities, inclusive education, the ESFIDIP Tempus project, and volunteer opportunities in the Center for Students with Disabilities.

Similar training seminars were carried out on October 13 for the School of Education; October 18 for the School of Engineering and Applied Sciences as well as the School of Economics and Management; and October 21 for university staff members.





## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİNİN BEYNƏLXALQ KONFRANSDA İŞTİRAKI NMC İLLİK HESABATINDA

Neft Mühəndisləri Cəmiyyətinin (NMC) Azərbaycan bölməsinin 2015-2016-cı illər üzrə illik hesabatında Qətərin paytaxtı Doha şəhərində keçirilən 9-cu Beynəlxalq Neft Texniki Konfransı haqqında məqalə dərc olunmuşdur. Konfransda dünyanın 42 ölkəsini təmsil edən tələbələr iştirak etmişdilər. Həmin məqalədə Xəzər Universitetinin tələbəsi Fərid İsmayılovun adı çəkilən konfransda iştirak etdiyi qeyd olunur.

## ARTICLE ABOUT STUDENT'S PARTICIPATION IN INTERNATIONAL CONFERENCE IN SPE ANNUAL REPORT

In the Annual Report of the Society of Petroleum Engineers' Azerbaijan Section for the years 2015-2016, an article was published about the 9th International Petroleum Technical Conference (IPTC) in Doha, Qatar in 2015. The article notes that Khazar University student Farid Ismayilov was selected to participate in IPTC 2015, which included student participants representing 42 countries.

## XƏZƏR UNİVERSİTETİNİN TƏDQİQAT VƏ İNKİŞAF MƏRKƏZİ HAQQINDA NMC-NİN İLLİK HESABATINDA

Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsinin 2015-2016-cı illər üzrə illik hesabatında bütöv bir səhifə "NMC-nin Azərbaycan bölməsinin tarixində ən böyük nailiyyət" kimi qələmə verilən Xəzər Universitetində Tədqiqat və İnkişaf Mərkəzinə həsr olunmuşdur. Bu mərkəzin yaradılmasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının göstərdiyi kömək vurğulanır.

## KHAZAR UNIVERSITY RESEARCH DEVELOPMENT CENTER HIGHLIGHTED IN SPE ANNUAL REPORT

In the Annual Report of the Society of Petroleum Engineers' Azerbaijan Section for the years 2015-2016, a full page spread was dedicated to the Research Development Center at Khazar University, which was described as "one of the biggest milestones in the history of [SPE Azerbaijan]." The article emphasized the support of Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, in the center's establishment

## "XƏZƏR"İN TƏLƏBƏLƏRİNİN PETROBOWL MÜSABİQƏSİNDƏ UĞURLARI NMC-NİN İLLİK HESABATINDA YER ALDI

Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsinin 2015-2016-cı illər üzrə illik hesabatında Xəzər Universitetinin tələbələrinin beynəlxalq *PetroBowl* (Neft sahəsi üzrə bilik yarışması) müsabiqəsində uğurlu iştirak etdikləri haqqında məqalə dərc olunmuşdur. 2014-cü ildə Londonda Region üzrə *PetroBowl* müsabiqəsində 2-ci yeri tutan Xəzər Universitetinin 4 tələbədən ibarət komandası 2015-ci ildə Texasda keçirilən NMC İllik Texniki Konfrans və Sərgisində, *PetroBowl* müsabiqəsinin son turunda iştirak etdi. Dünya üzrə keçirilən müsabiqənin son turunda Azərbaycan ilk dəfə idi ki, təmsil olunurdu.

## ARTICLE ABOUT STUDENTS' PETROBOWL SUCCESS IN SPE ANNUAL REPORT

In the Annual Report of the Society of Petroleum Engineers' Azerbaijan Section for the years 2015-2016, an article was published about the success of the Khazar University student team in the international PetroBowl knowledge competition. A team of 4 Khazar University students who had won second place in the Regional PetroBowl Qualifications in London went on to participate in the Finals Competition at the SPE Annual Technical Conference and Exhibition in Texas in 2015. This was the first time that Azerbaijan was represented in the final round of the competition





# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI ELMİ EZAMİYYƏTDƏ OLMUŞDUR

Xəzər Universiteti Riyaziyyat departamentinin müdiri Əli Hüseynli oktyabrın 2-dən 9-dək Yıldız Teknik Universitetində (İstanbul, Türkiyə) elmi ezamiyyətdə olmuşdur. Ə.Hüseynli universitetin Riyaziyyat bölümündə əməkdaşların, magistr və doktorantların iştirak etdiyi bir neçə seminarda "Özünə qoşma olmayan bir differensial operatorun bazi spektral xassələri" mövzusunda çıxış etmişdir. O, həmçinin, Riyaziyyat bölümünün doktorantları və magistrləri üçün "Analitik funksiyaların sərhəd məsələləri və onların bazislik məsələlərinə tətbiqi" mövzusunda bir həftəlik dərs təşkil etmişdir.

Ə. Hüseynlinin Riyaziyyat bölümündəki bir həftəlik fəaliyyəti Fən-Ədəbiyyat fakültəsinin və Riyaziyyat bölümünün rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş və ona riyaziyyat bölümünün bir magistrinə elmi rəhbərlik etmək təklif olunmuşdur

# KHAZAR UNIVERSITY MATHEMATICS DEPARTMENT CHAIR ON AKADEMIK TRIP

On October 2-9, Ali Huseynli, Head of the Department of Mathematics of Khazar University, went on a business trip to Yildiz Technical University (Istanbul, Turkey). He gave a number of seminars on the topic of "Some spectral properties of non-selfadjoint differential operators" at the Mathematics Department with the attendance of faculty members, PhD students and master students of the department. He also organized a one-week seminar entitled "Boundary value problems of analytic functions and their applications to basicity problems" for PhD students and master students of the Department of Mathematics. Huseynli's activity at the department was highly appreciated by the School of Arts and Sciences and he the suggestion was made that he supervise one of the master students of the Mathematics Department.

# XƏZƏR UNİVERSİTETİNİN "EİLİNK" TİM-NİN BİRİNCİ GEOLOJİ TƏDQİQAT LAYİHƏSİNİN TƏQDİMATI KEÇİRİLDİ

Oktyabrın 12-də Xəzər Universitetinin "eiLink" Tədqiqat və İnkişaf Mərkəzinin birinci geoloji tədqiqat layihəsinin təqdimatı keçirildi. Təqdimatı giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, "eiLink" Tədqiqat və İnkişaf Mərkəzininin yaradılmasının əhəmiyyətindən danışdı. Xəzər Universitetinin Neft-qaz mühəndisliyi departamentinin müdiri, "eiLink" Təqiqat və İnkişaf Mərkəzinin direktoru Qəşəm Zeynalov və Azərbaycan Neft Mühəndisləri İctimai Birliyinin İdarə Heyətinin üzvləri "eiLink" Tədqiqat və İnkişaf Mərkəzinin yaradılması, onun vəzifələri və hazırda aparılan tədqiqat işlərinin istiqamətləri haqqında məlumat verdilər.

Sonra layihənin rəhbəri və əsas icraçısı Qəşəm Zeynalov, layihənin icraçısı və universitetin doktorantı Şəhriyar Alxaslı tədqiqatların ilkin nəticələrini təqdim etdilər. Layihə tədbir iştirakçıları tərəfindən geniş müzakirə edildi. Tədbirin sonunda professor Hamlet İsaxanlı, universitetin rektoru Dr. Hassan Niknafs tədqiqatlarla bağlı fikirlərini söylədilər.

Tədbirdə Xəzər Universitetinin prorektoru, professor Məhəmməd Nuriyev və universitetin Neft-qaz mühəndisliyi üzrə doktorantları da iştirak edirdilər

# KHAZAR UNIVERSITY EILINK R&D CENTER PRESENTS GEOLOGY RESEARCH PROJECT

On October 12, 2016, Khazar University's eiLink Research and Development Center held a presentation of its first geology research project. Opening the presentation, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees spoke about the significance of the center's establishment. Then speeches were made by Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering, and members of the Executive Board of Azerbaijan Petroleum Engineers' Public Union about the creation, functions and current research of the eiLink Research and Development Center.

Then initial results of research by Gasham Zeynalov, project director and main coordinator, and Shahriyar Alkhasli, PhD student, were shared and a discussion was held. At the end of the event, Professor Hamlet Isaxanli and Dr. Hassan Niknafs, President of Khazar University, shared their views on the research.

Professor Mahammad Nuriyev, Vice President of Khazar University, and PhD students majoring in Petroleum Engineering also participated in the event.



# "XƏZƏR"İN MƏZUNU "UĞUR HEKAYƏSİ"Nİ DANIŞDI

2016-cı il oktyabrın 14-də "Kaspi" qəzetnin rəsmi internet səhifəsində (http://kaspi.az/) Xəzər Universitetinin məzunu Elməddin Hüseynovla "Təşəbbüskar olmaq lazımdır" başlıqlı müsahibə yayımlanmışdır.

Müsahibəni oxucularımıza təqdim edirik.

Müsahibəni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

**http://kaspi.az/az/tesebbuskar-olmaq-lazimdir-uur-hekayesi/**

# TƏŞƏBBÜSKAR OLMAQ LAZIMDIR

***Elməddin Hüseynovun fikrincə, nə qədər təşəbbüskar olsan, bir o qədər çox nailiyyət əldə edərsən***

***Uğur qazanmağımızda ailədə aldığımız tərbiyənin əsas rol oynadığını düşünür. Deyir ki, məsuliyyətli insan olmağımız ailədə aldığımız tərbiyədən asılıdır. Uğur qazanmağımızda isə məsuluyyətli olmağımızın böyük rolu var. Müsahibimiz "AtaHolding"in Keyfiyyət şöbəsinin rəhbəri Elməddin Hüseynovla yaxından tanış olaq...***

- Əmək fəaliyyətimə "Kentech" Qrupda mexanik kimi fəaliyyətə başlamışam. Daha sonra avtobioqrafiyamı Azərbaycan Dövlət Neft Şirkətinə göndərdim və Beynəlxalq idarəetmə standartlarının tətbiqi üzrə mütəxəssis, aparıcı mütəxəssis kimi çalışdım. Sonra Group Motors MMC-də Keyfiyyət idarəetmə meneceri, yenidən Dövlət Neft Şirkətinin Ekol Mühəndislik Xidmətləri QSC-də Keyfiyyət idarəetmə meneceri işlədim. Üç ildir "AtaHoldinq"-in Keyfiyyət şöbəsində çalışıram.

***- Dövlət Neft Şirkətində çalışandan sonra Group Motors MMC-yə keçdiniz. Səbəb vəzifə pilləsində heç bir irəliləyişin olmaması idi?***

- Bəli, həm karyera yüksəlişi baxımından, həm də səlahiyyətlərimin, məsuliyyətimin artması baxımından Group Motors MMC-ni seçdim. Təcrübəmi xidmət sahələrində tətbiq etmək istəyirdim. Düzdür, Neft Şirkətində işlədiyim dövrdə tədris, tikinti və kimya sektorunda müəyyən layihələrimiz olmuşdu. Lakin idarəetmə sisteminin yaradılmasında, müştəri məmnunluğunun təmin edilməsi işini qurmaqda həvəsli idim. Buna görə özüm təşəbbüs göstərdim. Sözügedən şirkətdə vakansiya olmadığı halda, şirkətin rəhbərliyinə təklif göndərdim. Məni müsahibəyə dəvət etdilər. Müsahibələrdən keçdikdən sonra fəaliyyətə başladım. Təxminən 8 ay ərzində intensiv işlər getdi. İdarəetmə sisteminin qurulması elə bir fəaliyyət növüdür ki, bütün struktur bölmələri, hətta deyərdim, şirkətin bütün əməkdaşları ilə ünsiyyət qurmalı, onların fəaliyyəti ilə tanış olmalı və normativlər hazırlamalısan ki, onlar tətbiq edilsin. Nəinki fəaliyyətdə olan əməkdaşlar, yeni gələcək əməkdaşlar belə, bu normativlərlə tanış olub öz fəaliyyətlərində yararlansınlar. Bu, sistemin qurulmasının bir mərhələsi idi. İkinci mərhələ sistemin effektivliyinin qiymətləndirilməsidir. Bunun üçün dövri monitorinqlər həyata keçirilir, vizual müşahidələr aparılır, eyni zamanda, proqram təminatında zəruri qeydlərin aparılması izlənilirdi. Hətta burada müştərilərlə ünsiyyət qaydalarına da üstünlük verilirdi.

***- Dediniz ki, vakansiya olmadığı halda, təşəbbüs göstərib şirkətin rəhbərliyinə təklif göndərdiniz. Amma gənclərimizin çoxu gözləyir ki, kimsə onlara vəzifə təklif etsin…***

- Həyatda təşəbbüskar olmaq lazımdır. Nə qədər təşəbbüskar olsan, bir o qədər çox nailiyyət əldə etmiş olarsan. Həm də gənclərimiz gənc yaşdaykən daha böyük təcrübələr əldə etməyə çalışmalıdırlar. Çünki əldə etdikləri kiçicik təcrübə

belə, onların bazarda rəqabət qabiliyyətini artırır, işsiz qalma ehtimalını azaldır. Böyük təcrübəyə sahib insanlar gələcəkdə bazar mühitində daha tez seçilir və qiymətləndirilirlər.

***- Siz Dövlət Neft Şirkətinə yenidən dəvət aldınız. Avtobioqrafiyanızı göndərərək qəbul olunduğunuz şirkətə sonradan dəvət almaq necə bir hissdir?***

- Gözəl hissdir. Bunu daha öncə ARDNŞ-də çalışdığım müddətdə xoş təəssürat qazanmağımın nəticəsi kimi qiymətləndirirəm. Ümumiyyətlə, hansısa şirkətdən ayrıldıqda, çalışıram, müsbət təəssüratla yadda qalım. Çünki şirkətlərin özü də mənim üçün bir müştəridir. O müştərini itirmək olmaz. Yaxud şirkətlərdə bir-biri ilə əlaqəli olan müxtəlif departamentlər ilin sonunda bir-birini qiymətləndirir. Bu nüansa da diqqət yetirmək lazımdır ki, eyni şirkətdə çalışdığın struktur bölmələrini də məmnun edəsən.

***- Siz şirkətdə çalışarkən öz şirkətinizi qurdunuz və paralel olaraq öz işinizi davam etdirdiniz. Böyük şirkətlərdə vəzifələrdə çalışa-çalışa öz işinizi də davam etdirməyiniz çətin deyildi ki?***

- Təşəbbüskarlıq və təcrübə layihələr qazandırırdı. Buna görə də konsultasiya şirkəti yaratmaq və bu təklifləri dəyərləndirmək qərarına gəldim. Amma bu işi tək görə bilməzdim, komandaya ehtiyacım var idi. Bu səbəbdən sözügedən istiqamətdə çalışan dost-tanışa işimlə paralel bir müddət təlim verdim. Təlim verdiyim yoldaşlarla layihələri bölüşürdüm. Düzdür, layihə üzrə idarəetmə mənim nəzarətimdə idi, amma tətbiq mərhələsi onlarda idi. İş yükü çox olurdu, çatdırmağa çalışırdım. Hətta, həftədə üç dəfə işdən sonra Xəzər Universitetində MBA dərəcəsi üzrə təhsil alır, boş qalan günlərdə isə işdən sonra idarəetmə sistemləri üzrə təlimlər verirdim. Səhər saat 9-dan axşam saat 10-a kimi tam məşğul qrafikdə çalışırdım. Etiraf edim ki, yorulurdum. Amma bazar gününü tam istirahətimə sərf edirdim ki, yeni iş həftəsinə enerji ilə başlayım.

Qeyd edim ki, işlərin çoxluğundan öz biznesimə bir müddətlik fasilə vermişəm, amma hərdən layihələr çərçivəsində konsultasiyalar verirəm.

***-Daha sonra "AtaHolding"ə transfer etdiniz. Səbəb?***

- Əsas səbəb təcrübəmlə "AtaHolding"in fəaliyyətinə dəyər qatmaq, holdinq idarəetməsində mərkəzləşmiş idarəetmə sisteminin qurulması təcrübəsini əldə etmək idi. Bank, sığorta, turizm, informasiya kommunikasiya texnologiyaları sahəsi üzrə keyfiyyət idarəetmə sisteminin qurulması və təkmilləşdirilməsi məsuliyyətimin tərkib hissəsidir. Bu istiqamətdə "AtaHolding"də Keyfiyyət qrupu yaradılıb və qrup şəklində çalışırıq. Holdinqin törəmə təsərrüfat cəmiyyətləri olan "AtaBank" ASC, "AtaSığorta" ASC, "AtaTravel" MMC, "Excelsior Hotel & Spa Baku" hoteli ilə sıx işləyirik.



***- Həm öz şirkətinizə rəhbərlik etmisiniz, həm də başqa şirkət üçün işləmək təcrübəniz var. Bunlar arasında fərq nədir?***

- Öz biznesin olanda, demək olar, bütün profillərdə təşəbbüskar sənsən. Həm müqavilə üzrə xidmətin təmin edilməsi, həm hüquqşünas, həm maliyyəçi və s. olursan. Amma şirkət üçün çalışanda hüquqi məsələləri hüquq departamenti, maliyyə məsələlərini maliyyə departamenti həll edir. Ümumilikdə götürsək, elə də böyük fərq görmürəm.

***- İşinizin xarakterinizdə qoyduğu iz…***

- Atılan hər bir addımda çox qiymətləndirmə aparıram. Nəticənin də həmişə mükəmməl olmasına çalışıram. Bu, təkcə işdə deyil, ailə həyatında, dost-tanışla münasibətimdə də öz əksini tapır. Atılan addımlara çox həssasam.

***- Son ənənəvi sualımız: uğur sirriniz nədədir?***

- Uğur qazanmağımızda ailədə aldığımız tərbiyənin rol oynadığını düşünürəm. Çünki sənin məsuliyyətli böyüməyin ailədəki tərbiyədən asılıdır və məsuliyyətli insanın da uğur əldə etməsi qaçılmazdır.

***Lalə Musaqızı***

# SEJONG UNİVERSİTETİ XƏZƏR UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIĞA MARAQ GÖSTƏRİR

Oktyabrın 12-də Sejong Universitetinin (Seul, Cənubi Koreya) nümayəndələri Xəzər universiteti ilə əməkdaşlıq məsələlərini müzakirə etmək üçün universitetdə oldular. Görüş universitetin "Neftçilər" kampusunda keçirildi.

Sejong Universiteti nümayəndə heyətinin tərkibinə proqram rəhbəri Joshua Han və koordinator Otabek Juraev daxil idilər. Xəzər Universitetini isə rektor Dr. Hassan Niknafs və Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova təmsil edirdilər.

Görüşdə tərəflər tələbə mübadiləsi, müştərək dərəcə proqramları və başqa birgə layihələrə maraqlarını ifadə etdilər. Rəsmi əməkdaşlığa başlamaq üçün iki universitet arasında anlaşma memorandumunun imzalanması qərara alındı.



# SEJONG UNIVERSITY REPRESENTATIVES VISIT KHAZAR UNIVERSITY

On October 12, representatives of Sejong University (Seoul, Korea) visited Khazar University to initiate cooperation between the two universities. The meeting was held on the university's Neftchilar campus.

Representatives of Sejong University included Mr. Joshua Han, Program Manager and Mr. Otabek Juraev, Associate Coordinator. Participants from Khazar University included Dr. Hassan Niknafs, President, and Ms. Turan Jafarova, Director of the International Affairs Office.

The parties expressed interest in exchanging students, developing joint/double degree programs, and carrying out other joint projects. A memorandum of understanding will soon be signed between the two universities to start the official coopertaion.

# KARYERA MƏRKƏZİ "İNTERVYU" TƏLİMİ TƏŞKİL ETDİ

Oktyabrın 13-də Xəzər Universiteti Karyera mərkəzi "İntervyu" təlimi keçirdi. Təlimdə müxtəlif fakültələrin tələbə və məzunları iştirak edirdilər. Təlimi Xəzər Universiteti Karyera mərkəzinin koordinatoru Ülviyyə Hüseynova təşkil etmişdi.

Təlimdə iştirakçılar intervyu prosesində iştirak, intervyu suallarının nümunələri, oturuş qaydası, intervyu aparanla ünsiyyət forması, üz ifadələri və mimikalardan düzgün istifadə qaydaları ilə tanış oldular. Hər iştirakçı üçün nəzərdə tutulmuş intervyu prosesi video, audio formatda yazıya alındı və müzakirə aparıldı.

Təlimin sonunda yaranan suallara, intervyu zamanı iştirakçıların etdiyi səhvlərə aydınlıq gətirildi.

# CAREER CENTER INTERVIEW TRAINING

On October 13, the Khazar University Career Center held a training for students and graduates about job interviews. Participants in the training included students and alumi from various schools of the university. The training was organized by Ulviyya Huseynova, Career Development Coordinator. Topics covered in the event included participation in interviews, sample interview questions, how to sit, how to speak with interviewers, and how to correctly use facial expressions and gestures. Each participant gave a mock interview with video and audio recording and was given individual feedback.

At the end of the training, participants' questions were answered.

# "MEDİA VƏ TƏHSİL DİALOQU" MÖVZUSUNDA TƏLİM-KONFRANS

Oktyabrın 13-də Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Media və təhsil dialoqu" mövzusunda təlim-konfrans keçirildi. Tədbirdə respublikanın bütün təhsil müəssisələrinin mətbuat xidmətlərinin nümayəndələri iştirak edirdilər.

Müzakirələrdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdi.

# TRAINING CONFERENCE ON "THE MEDIA AND EDUCATION DIALOGUE"

On October 13, a training conference on "The Media and Education Dialogue" was held in a Baku hotel by the Ministry of Education of the Azerbaijan Republic. Representatives from the Public Relations departments of all educational institutions in the country participated in the event, also participated in discussions at the conference.

Alovsat Amirbayli, Public Relations and Media Director of Khazar University, participated in discussions.

# "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

**"Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr" mövzusunda İkinci Beynəlxalq elmi konfrans**

Oktyabrın 10-11-də AMEA Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən təşkil olunan "Azərbaycan mühacirət ədəbiyyatı: reallıqlar, problemlər, vəzifələr" mövzusunda İkinci Beynəlxalq elmi konfrans keçirilib.

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli konfransı giriş sözü ilə açaraq tədbirin məqsəd və vəzifələri haqqında məlumat verib. Mühacirət ədəbiyyatının kompleks araşdırılmasında 1991-ci ildə bu mövzuya həsr olunmuş Birinci konfransın əhəmiyyətini xüsusilə qeyd edən akademik hazırda bu sahədə Nizami adına Ədəbiyyat İnstitutunda ciddi işlər aparıldığını söyləyib. Qeyd edib ki, mühacirət ədəbiyyatının obyektiv tədqiqi, o cümlədən, Nizami adına Ədəbiyyat İnstitutunda "Azərbaycan mühacirət ədəbiyyatı" şöbəsinin yaradılması milli müstəqilliyin elmimiz qarşısında açdığı geniş im-



kanın təzahürüdür. Natiq, həmçinin, bu sahədə ədəbiyyatşünaslığın qarşısında duran mühüm vəzifələrdən danışıb.

Akademik Teymur Kərimli, AMEA-nın müxbir üzvü Nərgiz Axundova, türkiyəli alim, professor Yavuz Akpınar, AMEA-nın müxbir üzvü Nizami Cəfərov çıxış edərək, Azərbaycan mühacirət ədəbiyyatının ideya mahiyyətindən, yaradıcılıq prinsiplərindən və konfransın əhəmiyyətindən söz açıblar.

Sonra filologiya üzrə fəlsəfə doktorları – dosent Nikpur Cabbarlı, Abid Tahirli, professor Yavuz Akpınar və başqalarının mühacirət ədəbiyyatının mühüm problemlərindən bəhs edən məruzələri dinlənilib.

Konfrans müxtəlif bölmələrdə davam edərək, yekun iclasla işini başa çatdırmışdır.

# "AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATI KİTABXANASI" KİTABLAR SERİYASINDAN "MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ" CİLDİNİN TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB

Oktyabrın 10-da Nizami adına Ədəbiyyat İnstitutunda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin baş redaktorluğu ilə tərtib edilərək nəşrə hazırlanan "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" kitablar seriyasının "Məhəmməd Əmin Rəsulzadə" cildinin təqdimat mərasimi keçirilib.

Akademik İsa Həbibbəyli tədbiri giriş sözü ilə açaraq "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası"nın nəşrini zəruri edən amillərə aydınlıq gətirib, bu kitablar seriyasının çoxcəhətli əhəmiyyətini izah edib.

Nizami adına Ədəbiyyat İnstitutunun Azərbaycan mühacirət ədəbiyyatı şöbəsinin müdiri, "Məhəmməd Əmin Rəsulzadə" cildinin məsul redaktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nikpur Cabbarlı birldirib ki, 2013-cü ildə "Mühacirət ədəbiyyatı şöbəsi"nin yaradılması bu kitablar seriyasının nəşrini sürətləndirdi və həmin ildə AMEA Rəyasət Heyəti tərəfindən təşkil edilən redaksiya heyətində azərbaycanlı alimlərlə yanaşı türkiyəli alimlər Yavuz Akpınar, Ömər Özcan da yer almışdır. Alim qeyd edib ki, bu kitablar seriyasının nəşrində əsas məqsədlərdən biri mühacirət ədəbiyyatını geniş oxucu kütləsinə və elmi ictimaiyyətə təqdim etmək olsa da, digər əsas məqsəd mühacirət ədəbiyyatının tədqiqi üçün sanballı biblioqrfik baza yaratmaqdır




Türkiyəli alim, professor Yavuz Akpınar, Azərbaycan mühacirət irsinin tədqiqatçısı Ramiz Abutalıbov və digər alimlər "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" kitablar seriyasının, o cümlədən, "Məhəmməd Əmin Rəsulzadə" cildinin nəşrini təqdir edərək, bunu Nizami adına Ədəbiyyat İnstitutunun mühacirətşünaslığa böyük töhfəsi kimi qiymətləndiriblər.

# BİBLİOQRAFİK NƏŞRLƏRİN ÜÇÜNCÜSÜ




AMEA Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunan və institut əməkdaşlarının illik elmi əsərlərini – monoqrafiyaları, xaricdə və ölkənin nüfuzlu elmi jurnallarında nəşr olunmuş məqalələri, dövri mətbuatda və internet resurslarında dərc olunan yazıları, müsahibələri özündə əhatə edən vəsait – "Biblioqrafik göstərici – 2015" kitabı işıq üzü görüb.

AMEA-nın vitse prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin təşəbbüsü və layihə rəhbərliyi ilə toplu 2013-cü ildən etibarən nəşr olunur. Filoloji istiqamətdə araşdırma aparan tədqiqatçılara mənbələri daha rahat tapmaqda kömək edən və institut əməkdaşlarının elmi fəaliyyətinin salnaməsinə çevrilən toplunun tərtibçisi filologiya üzrə fəlsəfə doktoru Zakirə Əliyeva və Sona İbrahimova, redaktoru isə İnstitutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıdır.

# "MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI" KİTABININ TƏQDİMATI



Oktyabrın 17-də AMEA Nizami adına Ədəbiyyat İnstitutunda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" ikicildliyinin təqdimat mərasimi keçirilib. AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli tədbiri giriş sözü ilə açaraq ikicildlikdə müstəqillik dövrü ədəbiyyatının təşəkkülü, formalaşması, ümumi xüsusiyyətləri və müasir inkişaf tendensiyalarının araşdırıldığını, əsas yaradıcı simalarına oçerklərin həsr olunduğunu bildirib.

Qeyd olunub ki, yeni nəşr kitabın elmi redaktoru, akademik İsa Həbibbəylinin "Müstəqilliyin şərəfli yolu və müstəqillik ədəbiyyatı" adlı geniş "Ön söz" məqaləsi ilə açılır. Məqalədə müstəqillik dövrü ədəbiyyatını yetirən ictimai-siyasi və tarixi-mədəni durum səciyyələndirilir.

Nəşrin elmi redaktoru akademik İsa Həbibbəyli, məsul redaktoru filologiya üzrə elmlər doktoru Tehran Əlişanoğludur.

Sonra kitabın məsul redaktoru, filologiya üzrə elmlər doktoru Tehran Əlişanoğlu "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: mərhələlər, problemlər, simalar" mövzusunda məruzəsini təqdim edib. Məruzəçi müstəqillik dövrü ədəbiyyatının müxtəlif problemlərindən söz açıb. Tədbirdə Azərbaycanda Atatürk Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Nizami Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, türkiyəli professor Yavuz Akpınar, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev və başqaları çıxış edərək, müstəqillik dövrünün bədii ədəbiyyat və ədəbiyyatşünaslıq qarşısında açdığı geniş imkanlardan, təqdim olunan kitabın əhəmiyyətindən danışıblar.

# "POETİKA.İZM" ELMİ JURNALININ NÖVBƏTİ SAYI NƏŞR OLUNUB

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Poetika.izm" elmi jurnalının növbəti sayı nəşr olunub.

Akademik İsa Həbibbəylinin baş redaktor olaraq nəşrinə rəhbərlik etdiyi jurnalda ədəbiyyatşünas alimlərin mətn poetikasını, ədəbi cərəyanları, janr, struktur, forma məsələlərini, tarixi poetikanı ehtiva edən məqalələri yer alıb. Məqalələrin bir qismi yeni mövzu və problemləri əhatə etməklə, digər qismi isə indiyə qədər tədqiq olunan bir sıra mövzuları fərqli baxış istiqamətindən araşdırmaqla ədəbiyyatşünaslığımız üçün yeni, həm də əhəmiyyətlidir.

"Ədəbi təhlil. Mətn poetikası", "İzm", "Janr, struktur, forma", "Tarixi poetika" və "Dünya ədəbiyyat nəzəriyyəsindən tərcümələr" bölmələrində Azərbaycan və xarici ölkə alimlərinin məqalələri dərc olunub.



# "POÇT QUTUSU" GÜRCÜ DİLİNDƏ



Tiflisdə Gürcüstan Yazıçıları Milli Akademiyasının xətti ilə "Universal" nəşriyyatı tərəfindən gürcü dilində Azərbaycan tənqidi realizminin yaradıcısı Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayələr kitabı işıq üzü görmüşdür. Bu, yazıçının görkəmli tədqiqatçılarından biri - akademik, millət vəkili İsa Həbibbəylinin layihəsi əsasında reallaşmışdır.

Akademik İsa Həbibbəyli uzun illərdir ki, Cəlil Məmmədquluzadənin hekayələrini dünya xalqlarının dillərində tərcümə olunmuş hekayələrini nəşr etdirir və bununla böyük klassikin əsərlərinin dünyada tanıdılmasına geniş imkan yaradır. Bu layihə əsasında Cəlil Məmmədquluzadənin hekayələri artıq Misir Ərəb Respublikasında, Macarıstanda və Pakistanda nəşr edilmişdir. Ona görə də, yazıçının "Poçt qutusu" hekayələr kitabının İsa Həbibbəylinin ideya müəllifliyi və ön sözü ilə Tiflisdə nəşr olunmasını ədəbi mühitdə mühüm hadisə kimi dəyərləndirmək olar. Həyatının böyük bir dövrü Tiflisdə keçən və "Poçt qutusu" hekayəsinin ilk dəfə burada "Şərqi Rus" qəzetində çap edilməsinə baxmayaraq, gürcü oxucuları onun hekayələri ilə tanış olmamışdı.

Kitabın redaktoru filologiya elmləri doktoru, Şota Rustaveli adına Gürcüstan Ədəbiyyatı İnstitutunun direktoru professor İrma Ratianidir. Nəşriyyat redaktorları məşhur gürcü yazıcısı Nariman Yaşağaşvili (Naro Kolxeli) və Mirzə Məmmədoğludur.

Hekayələri Gürcüstan və Azərbaycan dövri mətbuatında gürcü və Azərbaycan dillərində əsərləri çap olunan Almaz Mirzəoğlu tərcümə etmişdir.

Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayələr kitabının Tiflisdə gürcü dilində nəşr edilməsi Azərbaycan-Gürcüstan ədəbi əlaqələrinin parlaq hadisəsidir.

# "YAŞAR QARAYEVİN İRSİ: ƏDƏBİYYATIN TARİXİ VƏ MÜASİR PROBLEMLƏRİ" MÖVZUSUNDA KONFRANS

Oktyabrın 26-da AMEA Nizami adına Ədəbiyyat İnstitutunda AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Yaşar Qarayevin anadan olmasının 80 illiyinə həsr edilmiş "Yaşar Qarayevin irsi: ədəbiyyatın tarixi və müasir problemləri" mövzusunda konfrans keçirilib. Konfransda ədəbiyyatşünas alimin əsərlərinin 5 cildliyinin də təqdimatı olub.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli tədbiri giriş sözü ilə açaraq Yaşar Qarayevin Azərbaycan ədəbiyyatşünaslığına əvəzsiz xidmətlərindən danışıb.

XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Şirindil Alışanlı "Yaşar Qarayevin nəzəri irsi və müasir ədəbiyyatşünaslığın metodoloji axtarışları", Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Tahirə Məmməd "Yaşar Qarayevin yaradıcılıq metodu konsepsiyası" mövzularında məruzə ediblər.

Azərbaycan Respublikasının Macarıstandakı səfiri, filologiya elmləri doktoru, professor Vilayət Quliyev, filologiya elmləri doktorları Qəzənfər Paşayev, Rüstəm Kamal, Rahid Ulusel, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı çıxış ediblər. Məruzə və çıxışlarda ədəbiyyatşünas alim Yaşar Qarayevin həyatı və yaradıcılıq xüsusiyyətləri haqqında ətraflı danışılıb.

Tədbirin sonunda akademik İsa Həbibbəylinin elmi redaktorluğu ilə nəşr olunmuş kitablar - "Yaşar Qarayev. Seçilmiş əsərləri" adlı 5 cildlik və "Yaşar Qarayev: Yaxından və uzaqdan. Məqalələr və xatirələr toplusu" konfrans iştirakçılarına təqdim olunub.





# AMERIKALI İFAÇI CEFFRİ VERBOKUN "XƏZƏR"DƏ SOLO KONSERTİ

Oktyabrın 17-də Xəzər Universitetinin Mərmər salonunda Amerika Muğam Cəmiyyətinin sədri, tanınmış musiqiçi Ceffri Verbokun solo konserti oldu. Konsertdə universitetin rəhbərliyi, müəllim və tələbələr iştirak edirdilər.

Universitetin Musiqi və incəsənət departamentinin müdiri, dosent Zülfiyyə Sadıqova Ceffri Verbokun həyat və yaradıcılığı, bir neçə milli musiqi alətimizdə ifa etməklə muğamlarımızın xarici ölkələrdə təbliği sahəsindəki fəaliyyəti haqqında məlumat verdi.

Ceffri Verbok tar və kamançada Azərbaycan muğamlarını ifa etdi və iştirakçıların suallarını cavablandırdı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı maraqlı konsertə görə Ceffri Verboka təşəkkürünü bildirdi və ona sertifikat təqdim etdi.






## SOLO CONCERT
### BY AMERICAN PERFORMER
## JEFFREY WERBOCK
### AT KHAZAR



**On October 17, a solo concert was performed in Khazar University's Marble Hall by Jeffrey Werbock, Chairman of American Mugham Society and well-known musician. University faculty, staff and students attended the concert.**

**Associate Professor Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, introduced Mr. Werbock with information about his life and works, including the various musical instruments he plays to promote mugham in foreign countries.**

**Then Jeffrey Werbock performed Azerbaijani mugham on tar and kamancha, and he answered the audience's questions. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, thanked Mr. Werbock for the interesting concert and presented him a certificate on behalf of the university.**

## CEFFRİ VERBOKUN
### BAKIDA KONSERTİ

Oktyabrın 19-da Bakı Beynəlxalq Muğam Mərkəzində amerikalı musiqiçi və muğam ustası Jeffrey Werbock-un iştirakı ilə konsert proqramı oldu və Azərbaycan musiqi sənəti haqqında muzakirələr keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı xarici ölkə musiqilərinin Azərbaycanda və Azərbaycan musiqisinin Qərb ölkələrində öyrənilməsi, sevilməsi və ifası haqqında danışdı, bu sahədə görülən və görülməsi arzu olunan işləri vurğuladı.

## JEFFREY WERBOCK'S
### CONCERT IN BAKU

On October 19, the International Mugham Center of Azerbaijan hosted a Mugham show by Jeffrey Werbock, American musician and mugham performer. A discussion session on Azerbaijani music followed.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, attended the show and spoke about intercultural exchanges in music, the study and promotion of Azerbaijani music in the West, and specific strategies for further advancements.

# "DÜNYA" MƏKTƏBİ İLƏ MİSİRİN MƏDƏNİYYƏT MƏRKƏZİ ARASINDA ƏMƏKDAŞLIĞA START VERİLDİ



**Oktyabrın 20-də "Dünya" məktəbi ilə Misirin Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzi arasında qarşılıqlı əməkdaşlığa start verildi.**

**"Misir Mədəniyyət Mərkəzi hər zaman "Dünya" məktəbi ilə təhsil, mədəniyyət və bir çox sahələrdə əməkdaşlıq qurmağa hazırdır və bu işdə köməyini əsirgəməyəcək," – bu sözləri Misirin Mədəniyyət attaşesi Əhməd Sami məktəb rəhbərliyi ilə görüşü zamanı söylədi.**

**Azərbaycanla Misir mədəniyyətləri arasında olan müştərək köklərdən, dinimizdən bəhs edən diplomat, həmçinin, "Dünya" məktəbində ərəb dilinin tədrisi, öyrənilməsi üçün Mədəniyyət Mərkəzinin hər bir şərait yaratmağa – Misirdən dilçi-müəllimlər, mütəxəssislər dəvət etməyə hazır olduğunu vurğuladı.**

**Görüş zamanı məktəbdə hər iki ölkənin mədəni, tarixi əlaqələrinə və Misir mədəniyyətinə həsr olunmuş böyük tədbir – "Misir günü" keçirilməsi qərara alındı.**

# DUNYA SCHOOL AND EGYPTIAN CULTURAL CENTER BEGIN PARTNERSHIP

**On October 20, Khazar University's affiliate Dunya School and the Egyptian Cultural Center of the Egyptian Embassy to Azerbaijan began a partnership.**

**At a meeting of the school administrators and Cultural Center representatives, Ahmad Sami, Egypt's Cultural Attaché, said that "The Cultural Center is always ready to help and to build partnership with Dunya School in the fields of education, culture and other areas."**

**The diplomat also spoke about common roots of Azerbaijani and Egyptian cultures, our faith, and the readiness of the Cultural Center to help Dunya School by providing educators and specialists from Egypt to teach the Arabic language.**

**During the meeting, a decision was made to hold "Egypt Day" in the near future to highlight the two countries' cultures and historical relations.**





# "ÇİN XALQ OYUNLARI VƏ ÇİN KİTABLARININ SƏRGİSİ"

Oktyabrın 26-da Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşları –"Çin guşəsi"nin layihə rəhbəri Səidə Orucova və koordinatoru Esmira Mehdiyeva "Dünya" məktəbinin şagirdləri üçün "Çin guşəsi" layihəsi çərçivəsində "Çin xalq oyunları və Çin kitablarının sərgisi" adlı tədbir keçirdilər. Tədbirdə BDU-nin nəzdində yerləşən Konfutsi İnstitutunun direktoru xanım Luo Xiaozhi və institutun müəllimləri iştirak edirdilər. Tədbiri layihənin rəhbəri Səidə Orucova açaraq, "Çin guşəsi" və Çin haqqında maraqlı məlumatlar verdi. Esmira Mehdiyeva şagirdləri kitablar və oyunlar barədə məlumatlandırdı. Daha sonra, Çin dili müəllimləri şagirdlərə Çin xalq oyunlarını nümayiş etdirdilər. Tədbir oyunlar və viktorinalarla davam etdi.

Şagirdlərə Xəzər Universiteti və Konfutsi İnstitutunun hazırladığı hədiyyələr təqdim olundu.

Sonda şagirdlər sərgi ilə tanış oldular.

# CHINESE FOLK GAMES AND BOOKS EXHIBIT

On October 26, Khazar University's Library and Information Center staff members Saida Orujova (China Corner project manager) and Esmira Mehdiyeva (coordinator) held an event entitled "Chinese Folk Games and Exhibit of Chinese Books" for the students of the university's affiliate Dunya School. Participants included Luo Xiaozhi, Director of the Confucius Institute affiliated with Baku State University, and Chinese language instructors. Saida Orujova opened the event with a speech about the China Corner and about China. Esmira Mehdiyeva informed the students about the books and games. Then Chinese language instructors showed the students how to play the games. The event continued with activities and quizzes.

Students received gifts from Khazar University and the Confucius Institute. Then they toured the exhibit.







# NOBEL MÜKAFATI LAUREATLARI - 2016



## FİZİOLOGİYA VƏ TİBB ÜZRƏ



Yoshinori Ohsumi

Fiziologiya və tibb üzrə Nobel mükafatını 71 yaşlı yaponiyalı alim Yosinori Osumi (Yoshinori Ohsumi) almışdır. Osumi hüceyrənin daxili komponentlərinin deqradasiyaya uğraması prosesi – autofagiya sahəsində kəşflərə görə mükafatlandırılmışdır.

Bununla əlaqədar Nobel komitəsinin mətbuat relizində deyilir: "Osuminin ixtiraları artıq komponentlərin hüceyrələr tərəfindən məhv edilməsi anlamında yeni paradiqmanın formalaşdırılmasına gətirib çıxarmışdır. Onun tədqiqatları bir çox fizioloji proseslərdə, məsələn, aclığa adaptasiya və infeksiyaya reaksiya kimi hallarda autofagiyanın əhəmiyyətinin dərkinə yol açmışdır".

Osumi iyirmi il ərzində hüceyrələrin daxilində çürüməni tədqiq edib. O, mayada autofagiyaya cavabdeh olan genləri aşkar etməyə və digər oqranizmlərdə bənzər prosesləri təsvir etməyə müvəffəq olub.

Tokio Texnoloji İnstitutunun professorudur.

2016-cı ildə fiziologiya və tibb sahəsində mükafata 273 alim namizəd idi. Osumi Nobel mükafatına layiq görülmüş 23-cü yapon alimidir.

## FİZİKA ÜZRƏ



Duncan Haldane



Michael Kosterlitz



David Thouless

Mükafata Britaniya əsilli ABŞ alimləri David Saules (David Thouless), Danken Haldeyn (Duncan Haldane) və Maykl Kosterilts (Michael Kosterlitz) layiq görülüb. Onlar mükafatı "Topoloji faza keçidlərinin və topoloji materiyanın fazalarının nəzəri kəşfi" sahəsindəki uğurlarına görə alıblar.

Nobel Komitəsi bildirib ki, alimlərin işi "naməlum dünyaya qapı açmış olub". Tədqiqatçılar çox soyuq və aşırı dərəcədə yastı olan maddədə atomların qeyri-adi hərəkətini təsbit ediblər. Bu fenomen sərt maddənin mayedən qaz halına keçməsi vaxtı onun müxtəlif fazaları barədə mövcud olan elmi mə-

lumatları tamamlayır. Hər üç alim superötürücü, supermaye və maqnetik lentlərdə rast gəlinən qəribə halları izah etmək üçün riyazi formulalardan istifadə edib. Elmi ixtiranın nəticələri yeni materialların yaradılması vaxtı istifadə oluna bilər.

Britaniyada anadan olmuş fiziklər hazırda ABŞ-da məskunlaşıblar. David Saules 1934-cü ildə Britaniyanın Bearsden şəhərində anadan olub. O, Vaşinqton Universitetinin sabiq professorudur. 1951-ci il təvəllüdlü, London şəhərində doğulmuş Danken Haldeyn ABŞ-dakı Prinston Universitetində işləyir. 1942-ci ildə Aberden şəhərində dünyaya gələn Maykl Kosterilts isə Broun Universitetinin müəllimidir.

## KİMYA ÜZRƏ


Jean-Pierre Sauvage


Bernard Lucas Feringa


Fraser Stoddart

Kimya üzrə Nobel mükafatına "molekulyar maşınların sintezi" işinə görə kimyaçı alimlər – Jan-Pyer Savaj (Jean-Pierre Sauvage, Fransa), Frezer Stoddart (Fraser Stoddart, Şotlandiya) və Bernard Lukas Ferinqa (Bernard Lucas Feringa, Niderland) layiq görülüblər. Alimlər molekulyar maşınları tarazlıq vəziyyətindən çıxara biliblər, nəticədə onların hərəkətinə nəzarət etmək mümkün olub. Bu qurğular yeni materiallar, sensorlar və enerjinin qorunub-saxlanılması sistemləri üçün əsas götürülə bilər.

Jan-Pyer Savaj 1944-cü ildə Parisdə anadan olmuşdur. Fransa Elmlər Akademiyasının həqiqi üzvüdür. Müxtəlif illərdə İsveçrə və ABŞ universitetlərində çalışmışdır.

Frezer Stoddart 1942-ci ildə Şotlandiyanın (Böyük Britaniya) Edinburq şəhərində doğulmuşdur. ABŞ-ın Şimal-Qərb Universitetinin professorudur.

Bernard Lukas Ferinqa 1951-ci ildə Niderlandın Barger-Kompaskum şəhərində dünyaya gəlmişdir. Qroningen Universitetinin (Niderland) professorudur.

## İQTİSADİYYAT ÜZRƏ


Bengt Robert Holmström

İqtisadiyyat üzrə Nobel mükafatını müqavilə nəzəriyyəsi üzrə işlərinə görə Britaniyada doğulmuş Oliver Hart (Oliver Hart) və Finlandiyadan olan Benqt Holmstrem (Bengt Robert Holmström) qazanıblar.

İsveç Kral Elmlər Akademiyası bildirib ki, onların işi müflislik qanunu və siyasi konstitusiyalar kimi siyasi sahələr üçün "intellektual təməl" olub, real həyat mü-


Oliver Hart

qavilələri və institutlarını anlamaq üçün əhəmiyyətlidir. Həmçinin əlavə olunub ki, onların işi "müqavilə hazırlanmasındakı mümkün tələbləri" müəyyən edə bilər. Hart və Holmstremin modeli real iqtisadiyyatda bir çox münasibətlərin – müəllim-tələbə, işverən-işçi, tənzimləyici-bankir və s. münasibətlərin öyrənilməsinə tətbiq edilə bilər.

1948-ci ildə doğulmuş Oliver Hart ABŞ-ın Harvard Universitetində iqtisadiyyat professorudur. 1949-cu ildə anadan olmuş Benqt Holmstrem isə Massaçusets Texnologiya İnstitutunda iqtisadiyyat və idarəetmə üzrə professordur.

## ƏDƏBİYYAT ÜZRƏ



Bob Dylan

Ədəbiyyat üzrə mükafata Bob Dilan (Bob Dylan) layiq görülüb. Bob Dilan ABŞ musiqiçisi, şairi və ssenaristidir. O, Nobel mükafatına Amerika musiqi ənənəsi çərçivəsində yeni poetik ifadə tərzi yaratdığına görə layiq görülüb.

Rok musiqiçisi Bob Dilan 1941-ci ildə Minnesotda anadan olub. 1960-cı illərdən karyeraya başlayan musiqiçinin şeirləri sosial-siyasi məzmunu ilə seçilib. O, "Qremmi", "Qızıl Qlobus", "Oskar" mükafatlarına layiq görülüb. 1994-cü ildən başlayaraq rəssamlıq və qrafika üzrə altı kitab nəşr etdirib. Bob Dilanın albomlarının ümumi satış tirajı 100 milyon nüsxədən çoxdur. 2012-ci ildə ABŞ prezidenti Barak Obama ona "Azadlıq" medalını təqdim edib.

## SÜLH MÜKAFATI



Juan Manuel Santos Calderón

Sülh mükafatına Kolumbiya prezidenti Xuan Manuel Santos Kalderon (Juan Manuel Santos Calderón) layiq görülüb. O, Kolumbiya İnqilabi Silahlı Qüvvələri ilə hökumət arasında sülh əldə olunmasına görə Nobel Sülh mükafatına layiq bilinib. Tərəflər arasında sülh müqaviləsi bu il sentyabrın 26-da imzalanıb. Qeyd edək ki, ölkədə vətəndaş müharibəsi 50 ildən artıq davam edib. 220 min nəfər 1964-cü ildən başlayan müharibənin qurbanı olub.

Santos 1951-ci ildə Kolumbiyanın paytaxtı Boqotada varlı və nüfuzlu ailədə anadan olmuşdur. Öz ölkəsində, ABŞ və İngiltərədə təhsil almışdır.

Santos Milli Birlik Partiyasının qurucusudur. Ölkənin daxili işlər naziri olmuşdur. 2010-cu ilin avqust ayından Kolumbiya prezidentidir.

*Mükafatın təqdim edilməsi mərasimi hər il dekabrın 10-da iki ölkənin – İsveçin və Norveçin paytaxtlarında keçirilir. Fizika, kimya, fiziologiya və təbabət, ədəbiyyat və iqtisadiyyat sahəsində mükafatlar Stokholmda İsveç kralı tərəfindən, sülhün qorunması sahəsində mükafat isə Osloda, şəhər ratuşasında Norveç kralının və kral ailəsi üzvlərinin iştirakı ilə Norveç Nobel Komitəsinin sədri tərəfindən təqdim edilir.*

*Laureatlara pul mükafatı ilə yanaşı üzərində Nobelin əksinin təsvir edildiyi medal və diplom təqdim olunur. Pul mükafatının məbləği Nobel fondundan alınmış gəlirdən asılı olaraq dəyişir. Bu il 8 milyon İsveç kronudur (930 min dollar, 1,5 milyon manat). Eyni mükafata bir neçə nəfər layiq görülmüşsə, onların arasında bölüşdürülür*



# ƏMƏKDAŞIMIZ MƏKTƏBDƏ GÖRÜŞ KEÇİRDİ

Oktyabrın 14-də Xəzər Universitetinin "Potensial məktəb direktorları" kursunu uğurla başa vurmuş və 232 saylı məktəbə direktor vəzifəsinə yeni təyin olunmuş Məhluqə Əzizovanın dəvəti ilə Xəzər Universiteti Təhsil fakültəsinin dekanı, fəlsəfə doktoru Elza Səmədli "Məktəb-universitet əməkdaşlığı" layihəsi çərçivəsində valideyn və müəllim kollektivi ilə görüşdü.

Görüşün məqsədi valideynləri kurrikulum sistemini daha yaxından tanış etmək, müəllimlərin çətinliklə qarşılaşdıqları mövzularda onlara kömək etmək idi. Görüşdə valideynlərə qaranlıq qalan məsələlərə, ən əsas isə qiymətləndirmədə yaranan problemlərə aydınlıq gətirildi. Sonda isə məsələlərin əsas həllində müəllimlərin böyük rolu olduğu qeyd edildi.

Görüş bitdikdən sonra E. Səmədli müəllimlərlə ayrıca görüşərək, onları maraqlandıran məsələlərlə əlaqədar müzakirə apardı.

## XƏZƏR UNİVERSİTETİNİN MAGİSTRANTI SOCAR-IN TƏQAÜDÇÜSÜ ADINA LAYİQ GÖRÜLÜB

Oktyabrın 14-də Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) baş ofisində Daxili Təqaüd Proqramının qaliblərinə plastik kartların və "Yay məktəbi-2016" iştirakçılarına sertifikatların verilməsi mərasimi keçirilmişdir. Mərasimdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Azərbaycanda fəaliyyət göstərən ali təhsil ocaqlarının rektorları, QHT rəhbərləri və şirkətlərin nümayəndələri iştirak etmişlər. Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin neft mühəndisliyi ixtisası üzrə ikinci kurs magistr tələbəsi Kamran Ələsgərov SOCAR-ın təqaüdçüsü adına layiq görülmüşdür.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

## KHAZAR MASTER STUDENT AWARDED SCHOLARSHIP BY SOCAR

On October 14, the head office of the State Oil Company of Azerbaijan (SOCAR) hosted a ceremony to present plastic cards to the Internal Scholarship Program grantees and certificates to the Summer School 2016 participants.

SOCAR President Rovnag Abdullayev, rectors of the higher educational institutions in Azerbaijan, NGO heads, and representatives of other companies' management attended the awards ceremony. Kamran Alasgarov, second-year master's student of Khazar University's School of engineering and Applied Sciences who is majoring in Petroleum Engineering, was among the SOCAR scholarship grantees.

Formore information see:

http://metbuat.az/news/542043/socar-in-yay-mektebi-2016-istirakcilarina-sertifikatlarin-ve.html





# Böyük Britaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri universitetdə

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kerol Meri Krofts Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində oktyabrın 21-də NDU-da da olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonağı salamlayaraq muxtar respublikada elm və təhsil sahəsində qazanılan nailiyyətlərdən danışıb, universitetin strukturu, maddi-texniki bazası, professor-müəllim heyəti, mövcud fakültə və ixtisaslar haqqında ətraflı məlumat verib. Görüş zamanı təcrübə mübadiləsi, universitetlərarası əlaqələrin, virtual əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub.

Səfir universitetlə ətraflı tanış olandan sonra Beynəlxalq əlaqələr və xarici dillər fakültəsinin tələbələri ilə görüşüb. O, Naxçıvandakı qonaqpərvərlik və səmimiyyətdən, hərtərəfli inkişafdan, təhsilə göstərilən diqqətdən, muxtar respublikanın təbiətindən məmnunluğunu ifadə edib. Çıxışda iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın perspektivlərindən danışılıb. Səfir tələbələrin İngiltərədəki təhsil sistemi, müəllim və tələbələr üçün səfirliyin təşkil etdiyi onlayn ingilis dili kursları, Böyük Britaniyadakı MBA Təqaüd Proqramı barədə suallarını cavablandırıb, gələcək diplomatlara tövsiyələrini çatdırıb.

# GÜLÜSTAN TÜRBƏSİNƏ EKSKURSİYA

Naxçıvanda turizmin inkişaf etdirilməsi ilə əlaqədar NDU-nun müəllim və tələbələrinin də müxtəlif muzeylərə ekskursiyası davam edir. Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov başda olmaqla universitet əməkdaşları Culfa yaxınlığında yerləşən, Azərbaycan memarlığının incilərindən biri sayılan Gülüstan türbəsini ziyarət ediblər.

Rektor bildirib ki, son 21 ildə Naxçıvanda 1200-dən artıq yerli, ölkə və dünya əhəmiyyətli tarixi abidə öyrənilərək pasportlaşdırılıb, onlardan 70-ə yaxını təmir və bərpa edilib. Culfa rayonu ərazisində yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsi də elmi və tarixi əsaslarla bərpa olunub.

Qeyd edilib ki, dünya əhəmiyyətli Gülüstan türbəsi XIII əsr Azərbaycan memarlığının ən maraqlı nümunələrindən biri, Əcəmi memarlıq məktəbinin yadigarıdır. AMEA Naxçıvan Bölməsinin "Gülüstan türbəsi" tədqiqat qrupu və Mədəniyyət və Turizm Nazirliyi ilə birgə yaradılan "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu bu memarlıq abidəsinin və ərazidə yerləşən digər tarixi abidələrin də tədqiqi, onlar haqqında tarixi materialların əldə olunması istiqamətində əhəmiyyətli fəliyyət göstərir.

Sonra universitet kollektivi Gülüstan türbəsi ilə yaxından tanış olub.



# MAGİSTRANTLAR ÜÇÜN ELMİ PERSPEKTİVLƏR



**Oktyabrın 24-də NDU-da AMEA Naxçıvan Bölməsinin şöbə müdirləri və aparıcı əməkdaşları ilə universitetin magistrantlarının görüşü keçirilib. Rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov universitetdə 1997-ci ildə təməli qoyulan magistratura pilləsi üzrə təhsilin səviyyəsindən danışıb. Bildirilib ki, magistraturanın fəaliyyəti 37**

**kafedranı əhatə edir. Universitetdə 47 ixtisas üzrə magistratura təhsili verilir. Rektor universitetin AMEA-nın Naxçıvan Bölməsi ilə səmərəli elmi əməkdaşlıq, təcrübə mübadiləsi, müştərək elmi tədqiqat və elmi nəşrlər, universitetin magistratura üzrə məzunlarının uğurlu elmi fəaliyyəti haqqında danışıb.**

**AMEA-nın Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev bildirib ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci ildə yaradılan AMEA-nın Naxçıvan Bölməsi Naxçıvanın mühüm elmi-tədqiqat mərkəzidir. Burada 6 elmi tədqiqat institutu, Biokimyəvi Tədqiqatlar laboratoriyası "Nəbatat bağı", zəngin elektron kitabxana, elektron portalları, "Tusi" nəşriyyatı, iki seriyada nəşr olunan "Xəbərlər" jurnalı, "Axtarışlar" jurnalı, Dissertasiya Şurası fəaliyyət göstərir. Bölmə Beynəlxalq İnternet Şəbəkəsinə qoşulub. Qeyd olunub ki, bu illər ərzində bölmənin əməkdaşları tərəfindən 2 cilddə "Naxçıvan Ensiklopediyası", "Naxçıvan abidələr ensiklopediyası", "Naxçıvan tarixi atlası", "Naxçıvan tarixi" çoxcildliyinin 1 cildi, "Naxçıvan teatrının salnaməsi", 3 cilddə "Naxçıvanın folkloru antologiyası", 2 cilddə Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitabı" kimi fundamental nəşrlər hazırlanıb. "Naxçıvan coğrafiyası" I cildinin hazırlanması, "Əlincəqala" tarixi abidəsinin və "Gülüstan" türbəsinin bərpası və tədqiqi və digər istiqamətlərdə aparılan işlərə universitet magistrantlarının da cəlb olunması zəruridir.**

**Akademik İsmayıl Hacıyev Naxçıvan Dövlət UniversitetiniinAMEA Naxçıvan Bölməsi üçün fundamental kadr potensialı rolu oynadığını vurğulayıb, magistrantlara boş iş yerləri haqqında məlumat verib, onları fəal əməkdaşlığa, məhsuldar elmi fəaliyyətə dəvət edib. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov da magistrantlara yaradıcı elmi tədqiqatla məşğul olmağı tövsiyə edib, elmi nailiyyətlər qazanmağın sonsuz maraq və sevgi, elmi fədakarlıq nəticəsində mümkünlüyünü vurğulayıb.**

***Mehriban Sultan,***
***NDU-nun Mətbuat şöbəsinin müdiri***






# CEFFRİ VERBOK

## "AZƏRBAYCANI TANIMASAYDIM, ADİ ÖMÜR YAŞAYACAQDIM"

**Amerika Muğam Cəmiyyətinin prezidenti, Azərbaycan muğamının tədqiqatçısı, Xəzər Universiteti ilə əməkdaşlıq edən Ceffri Verbokun APA-ya müsahibəsini, oxucularımıza təqdim edirik.**

**- Cənab Verbok, müəllifi olduğunuz "Gənc səslər, qədim nəğmə" filmi bir neçə gün əvvəl təqdim olundu. İstərdim, söhbətə Bakı premyerası ilə başlayaq...**

- Əvvəla, çox sevinirəm ki, bu filmi Bakıda təqdim edə bildik. Həmin gecə mənim ürəyim dolu idi. Həm jurnalistlərlə, həm də tamaşaçılarla fikirlərimi bölüşdüm. Hətta təkcə danışmadım, siz gördünüz ki, təqdimatdan sonra kamança da çaldım. Bakı premyerasından çox razı qaldım, təəssüratım o qədər zəngindir ki... Filmdə təkcə Azərbaycan muğam sənətinin böyüklüyünü yox, həm də yurdundan didərgin düşən insanların ağrı-acısını çatdırmağa çalışmışıq. Film bitəndə gördüm insanlar ağlayırlar.

Əlbəttə, mən o insanların acısını başa düşürəm. Ona görə özüm də onlarla bir yerdə ağlayırdım. Başa düşürəm ki, torpaq itirmək bir ölkə üçün nə deməkdir. Amma sizə deyim, məqsədim bu filmi təkcə azərbaycanlılar üçün çəkmək deyil. Məqsəd bütün dünya insanları, bütün qəlblər üçündür.

Görürəm, mədəniyyəti bu qədər zəngin olan bir ölkə haqqında dünyada az məlumat var. Mənim borcumdur ki, bu boşluğu doldurmaq üçün öz payımı verim. Kino ən ciddi təbliğat vasitəsidir. Düzdür, təbliğat üçün bütün imkanlardan istifadə etmək lazımdır. Məsələn, mən indi kitab yazıram. Amma kinonun effektini heç bir sənət sahəsi vermir. Allaha şükür ki, Avropa Azərbaycan Cəmiyyəti, onun rəhbəri Tale Heydərov bizə dəstək verdi və filmi ərsəyə gətirdik.

Bu cür mədəniyyət yaradan azərbaycanlılar ən yüksək münasibətə, sevgiyə layiqdirlər. Muğam fenomenal hadisədir. Bütün dünya bilməlidir ki, Azərbaycanda nələr var.

**- Filmdə təkcə muğam haqqında danışılmır. Əsas xətlərindən biri Qarabağ hadisələridir...**

- Əlbəttə, bizim məqsədimiz elə bu idi. Mən 2000-ci ildə çadır şəhərciyində olanda Nizami adlı bir uşaq yanğı ilə muğam oxuyurdu. Onu kameraya çəkmişdim. Muğamı əsasən qəzəl üstündə oxuyurlar, amma bu uşaq öz yazdığı şeiri oxuyurdu: məni o dağlar, qəbirlər səsləyir. İllər sonra həmin kadrlara baxdım və o qədər təsirləndim ki, Nizaminin sorağı ilə Bakıya gəldim. Məni ancaq bir sual maraqlandırırdı: görəsən, o vaxt vətəndən, torpaq dərdindən oxuyan uşaqlar indi haradadırlar, yenə oxuyurlarmı? Nizamini çox çətinliklə tapdıq...

**- Gəlin, bir qədər keçmişə - 70-ci illərə, sizin gəncliyinizə qayıdaq. O illərə ki, şərq musiqisi ilə tanış oldunuz və kamança sizin həyatınızı dəyişdi...**

- Bu o qədər uzaq tarixdir ki... Onda mənim cəmi 21 yaşım var idi. Gəncliyimdə bəstəkar olmaq istəyirdim. Şərq musiqisi haqqında çox az məlumatım var idi. Əlimə düşəndə hind musiqisinə qulaq asırdım, amma bu, o qədər də geniş yayılmamışdı. Gitara çalmağı özüm öyrənmişdim.

Los-Anceles o dövrdə musiqi mərkəzi idi, bütün cavanlar ora can atırdı. Bir nəfər mənə dedi, sən Şərq musiqisini öyrənməlisən. Mənə Zevulon Avşalomovun yerini nişan verdi.

**- Səhv etmirəmsə, Avşalomov əslən Dərbənddən olan dağ yəhudisi olub, hə?**

- Bəli, tamamilə doğrudur. 1909-cu ildə Dərbənddə anadan olub. 1918-ci ildə epidemiya yayılıb, əvvəl anası, bir həftə sonra isə atası ölüb. Çox çətin günlər yaşayıb. Vağzalda yük daşıyırmış, qəpik-quruşa mahnı oxuyurmuş. Mənə danışırdı ki, 16 yaşım olanda Dərbənddən Bakıya getdim, orda kamança çalmağı öyrəndim.

Beş il Moskvada, sonra Tehranda yaşayıb, daha sonra Amerika həyatı başlayıb. Avşalomov mənə kamança çaldı və mən kamançanın səsinə heyran oldum. Bu səs mənim həyatımı dəyişdi. Gitaranı da, bəstəkarlığı da bir kənara qoyub kamançanı öyrəndim.

Azərbaycandan Amerikaya ilk qastrol səfərinə gələnlər Zeynəb Xanlarova, Arif Babayev, Polad Bülbüloğlu, Zamiq Əliyev, Ədalət Vəzirov, Vəli Qədimov, Aftandil İsrafilov, Almaz Quliyev olub. 1988-ci ilin mart ayında Ərdəbildən olan dostum Behzad məni onlarla tanış elədi. Amerikalı bir adamın kamança çalmağına inanmırdılar. Onlarla tanış olandan sonra başa düşdüm ki, Bakıya getmək vacibdir. Çünki Ədalət Vəzirov da, Zamiq Əliyev də çox güclü musiqiçilərdir. Düzdür, mənim müəllimim Avşalomov kamançada yaxşı çalırdı, amma çox sadə idi.

Bir müddət sonra Amerikada bakılı olan bir qoca qadın tapdım, kiril hərflərlə Azərbaycana göndərmək üçün məktub yazdı. Təsadüfən həmin vaxt Alim Qasımov, Şəfiqə Eyvazova və Ramiz Quliyev Amerikaya gəlmişdilər. Həmin konsertə getdim, heyran oldum. Məktubu Alimə verdim, xahiş elədim, Bakıya çatdırsın. Məktubu o vaxt "Vətən" Cəmiyyətinin sədri Elçin Əfəndiyevə vermişdilər. Bir amerikalının kamança çalmağı, Azərbaycana gəlmək istəməyi Elçin Əfəndiyevə çox maraqlı gəlmişdi və məktubu Nəbi Xəzriyə göndərmişdi.

**- Nəbi Xəzri 20 ilə yaxın Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinə rəhbərlik edib...**

- O vaxt mənə dedilər, xaricdən gələn insanlara Nəbi Xəzri cavabdehdir. 1989-cu ildə öyrəndim ki, Zeynəb Xanlarova yenidən Amerikaya gəlib. Onlarla görüşdüm və təklif elədim ki, otelə artıq xərc çəkməyin, üç nəfəri öz evimdə saxlayacağam. Zeynəb Xanlarova oteldə tək qaldı, Zamiq Əliyev və başqa iki nəfərlə mənim evimə getdik. Zamiq dedi, Cefri, gəl bizim məşqlərdə iştirak elə.

Sonra Zeynəb Xanlarovaya danışdı ki, bu oğlan tarda-kamançada çalır, milli mahnılar oxuyur. "Dəli ceyran" mahnısını seçdik, Nyu-Yorkda duet oxuduq. Vaşinqtonda o mahnını təzədən oxuduq, çox yaxşı qarşılandı. Onlar Bakıya qayıdandan sonra mahnının lentini televiziyaya veriblər. AzTV-nin "Dalğa" verilişində mahnı dəfələrlə efirə verilib. Bakıya gələndə hamı məni qucaqladı, "Cefri, xoş gəlmisən", dedilər.

Azərbaycanlıların qonaqpərvərliyini eşitmişdim, amma bu qədərini bilmirdim. İnsanların mehribanlığını görəndən sonra başa düşdüm ki, Azərbaycana tez-tez getməliyəm. Ona görə sizin

dilinizi öyrəndim. Tərcüməçi yanımda olanda narahat olurdum. Siz bəlkə də inanmazsınız, Azərbaycan dilini lüğətsiz və müəllimsiz öyrənmişəm. Öyrəndikcə, ləzzət edirdi. Çünki şirin dildir. Azərbaycan dilində danışmayanda özümü azərbaycanlı saya bilmirdim. Görürsünüz, indi doğma dilinizdə danışırıq. İndi hiss edirəm, azərbaycanlıyam. Hətta çalışıram, yeni sözlər öyrənim. Məsələn, "əcəb edirəm" ifadəsini öyrənmişəm. Amma bunun qarşılığı da var: "qələt edirsən". (Gülür). Amerikada azərbaycanlılarla görüşəndə onlarla doğma dillərində danışıram, mənə ləzzətlə qulaq asırlar.

**- Filmdə sizin Heydər Əliyevlə görüşünüzdən bir parça var. Həmin görüşü necə xatırlayırsınız?**

- Üçüncü dəfə Azərbaycana gələndə Qivami Rəhimlinin təşkilatçılığı ilə Heydər Əliyevlə görüşdüm. Qivaminin çalışdığı Azərbaycan Beynəlxalq Neft Konsorsiumu iştirakçı şirkət idi. İndi Qivami BP-də çalışır. Mərhum prezidentiniz Heydər Əliyevə mənim haqqımda danışmışdılar, tapşırmışdı ki, gəlsin, görüşmək istəyirəm.

Ölkənin prezidenti idi, görüşləri, tədbirləri çox olurdu, amma mənimlə görüş üçün vaxt tapdı. Söhbətimiz bir saat çəkdi, mənə çox maraqlı şeylər danışdı. Daha doğrusu, Heydər Əliyev məni başa saldı ki, mədəniyyət insanın milli kimliyini təyin edir, milli kimliyi güclü olan xalqın isə gələcəyi var.

Mən adi kamançaçalan idim, bu qədər dərin şeyləri fikirləşə bilmirdim. Bu sözlər məni böyütdü. Təşəkkür elədi ki, Azərbaycan musiqisini təbliğ edirsən, Azərbaycanı tanıdırsan. Mən də Heydər Əliyevə dedim, Azərbaycansız mən heç kiməm.

Görürsünüzmü, indi Azərbaycanda muğama çox böyük qayğı var. Sizin birinci xanım Mehriban Əliyeva muğama çox böyük diqqət göstərir. Muğam festivalları keçirilir, kitablar çap olunur, Beynəlxalq Muğam Mərkəzi yaradılıb. Siz Milli Konservatoriyada olmusunuz?

**- Əlbəttə...**

- Siyavuş Kərimi oranın rəhbəridir. O qədər gözəl şəraiti var, heyran oldum. Sizin dövlətiniz mədəniyyətin tanınması üçün böyük işlər görür. Mən hər zaman bu işlərə "afərin" demişəm. Başqa heç bir ölkədə incəsənətin inkişaf etdirilməsi üçün dövlətin bu qədər öhdəlik götürdüyünü görməmişəm.

Heydər Əliyevin milli kimliklə bağlı dediyi siyasəti bu gün həm İlham Əliyev, həm də Mehriban Əliyeva davam etdirir. Nə yaxşı, Azərbaycan mədəniyyətinin dünyada təbliğində mənim də balaca payım var.

Səmimi deyirəm, inanın mənə: Azərbaycanı tanımasaydım, adi bir ömür yaşayacaqdım. İndi isə ömrüm çox maraqlıdır.

**- Hətta azərbaycanlı xanımla evlənmisiniz...**

- (Gülür). Bəli, mənim xanımım azərbaycanlıdır. Biz filmin çəkilişinə başlayanda tanış olduq. Gördüm, tər-təmiz ingiliscə danışır. Sonra gördüm, rusca da yaxşı bilir. Bizimlə çalışdı. Sonra Natəvan xanımla aramızda sevgi yarandı, Amerikada evləndik.

Daha doğrusu, Bakıda məclis elədik, gedib Amerikada münasibətlərimizi rəsmiləşdirdik. Anlayırdım ki, normal amerikalı qadın məni başa düşməyəcək. Natəvanın anası Fəridə xanım ingilis dili müəlliməsidir. Ona görə ailəsi ilə dil tapmağımız da çətin olmadı.

**- Bizim mətbəxlə aranız necədir?**

- Əla! Heyf ki, indi dieta saxlayıram. Çörək, makaron, düyü yemirəm. Dovğa üçün ölürəm. Sizə deyim, ilk dəfə dovğa yediyim günü xatırlayıram. 89-cu ildə Zamiq Əliyevgildə yemişəm. Dovğanı qabağıma qoydular, dedim, bu nədir, mən yeyə bilmərəm. Bir qaşıq daddım, oyy, ləzzəti hələ də yadımdadır. Amma sizə deyim, sevmədiyim şirniyyatlar da var. Məsələn, şorqoğalı. Sarıköklə heç aram yoxdur. Azərbaycanın kababı əladır. Sizin qoyunların quyruğunda olan dadı Amerikanın heç bir yerində tapa bilməzsən.

**Cavid Zeynallı**

24 Oktyabr 2016

http://apa.az/medeniyyet-xeberleri/incesenet-haqqinda/cefri-verbok-azerbaycani-tanimasaydim-adi-omur-yasayacaqdim-musahibe.html

## ƏMƏKDAŞIMIZIN KİTABI ALMANİYADA ÇAP OLUNUB

Oktyabr ayında Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan köməkçisi Validə Kərimovanın "Metaphor in Political Discourse" ("Siyasi diskursda metafora", ISBN 978-3-659-97239-3) adlı ilk kitabı Almaniyanın Saarbrücken şəhərində – LAMBERT Akademik Nəşriyyat Evindən gələn təkliflə çap edilmişdir (OmniScriptum GmbH & Co. KG – www.lap-publishing.com).




## ASSISTANT TO DEAN PUBLISHES BOOK IN GERMANY

On October, Valida Karimova, Assistant to the Dean of Humanities and Social Sciences at Khazar University, published her book entitled "Metaphor in Political Discourse" (ISBN 978-3-659-97239-3) through Lambert Academic Publishing in Saarbrücken, Germany. Lambert Academic Publishing.

## AMEA-NIN M. FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNDAN KİTABXANAMIZA HƏDİYYƏ

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Xatirə Yusifovanın təşəbbüsü və vasitəçiliyi ilə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundan universitetin Kitabxana-İnformasiya Mərkəzinə ədəbiyyat üzrə 59 adda, 82 nüsxə kitab hədiyyə olunmuşdur.

Müəllim və tələbə heyəti öz elmi araşdırmalarında bu kitablardan yararlana bilərlər.

## "XƏZƏR"İN ƏMƏKDAŞI "İRS VƏ İNNOVASİYALAR" ADLI DƏYİRMİ MASADA İŞTİRAK ETDİ

Oktyabrın 27-də Bakı Dövlət Universitetində "İrs və innovasiyalar – Lev Vıqotskinin mədəni-tarixi ənənələrinin davamı" adlı dəyirmi masa keçirilmişdir. "Rossotrudniçestvo", Moskva Dövlət Pedaqoji Universiteti, Rusiyanın İnformasiya-Mədəni Mərkəzi və Bakı Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən dəyirmi masada Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova da iştirak etmişdir.

## KHAZAR EMPLOYEE PARTICIPATES IN "HERITAGE AND INNOVATION" ROUNDTABLE

On October 27, a roundtable entitled "Heritage and Innovation: continuation of Lev Vigotsky's cultural-historical traditions" took place at Baku State University. The event was jointly organized by Rossotrudnichestvo, Moscow State Pedagogical University, Russia's Information-Cultural Center and Baku State University. Melek Karimova, Assistant Dean of the School of Humanities and Social Sciences and Director of the Psychological Service Center, participated in the meeting.

## KİM-İN ƏMƏKDAŞI BDU-DA SEMİNARDA İŞTİRAK ETDİ

2016-cı il oktyabrın 18-də Bakı Dövlət Universitetində "Wiley" onlayn kitabxana platformasından istifadə qaydaları"na həsr olunmuş seminar keçirildi. "Wiley"in Türkiyə, Azərbaycan, Özbəkistan üzrə satış meneceri Duygu Pacalının məruzəsi dinlənildi.

Seminarda Xəzər Universitetini Kitabxana-İnformasiya Mərkəzinin (KİM) Elektron informasiya xidmətləri bölməsinin müdiri Səidə Orucova təmsil edirdi.

Görüşdə "Azərbaycan elmi dünya çapında", "Azərbaycan elminə "Wiley" tərəfindən baxış", "Wiley" onlayn kitabxana platformasından istifadə qaydaları", əməkdaşlıq əlaqələrinin perspektivləri kimi mövzular müzakirə edildi.

Sonda iştirakçıların sualları cavablandırıldı.

# FULBRIGHT TƏQAÜDÜ İLƏ İNGİLİS DİLİ MÜƏLLİMLƏRİNƏ YARDIM EDƏCƏK



İngilis dili mütəxəssisi James Millar Fulbright proqramı çərçivəsində 2106-2017-ci təhsil ilində yerli ingilis dili müəllimlərinə yardım etmək məqsədilə Xəzər Universitetində fəaliyyətə başlamışdır.

James Millar beynəlxalq əlaqələr üzrə bakalavr dərəcəsini Miçiqan Dövlət Universitetində almışdır. O, burada, eyni zamanda, rus dili, Avrasiyaşünaslıq və beynəlxalq inkişaf üzrə də təhsil almışdır. Sonra orada iki illik bir müddətdə Avropaşünaslıq mərkəzində, eləcə də islamşünaslıq proqramı üzrə tədqiqat assistenti kimi çalışmışdır. James Millar  Azərbaycan, Türkiyə, Şri-Lanka, Hindistan və Latviyada da müxtəlif akademik proqramlarda iştirak etmişdir.

Hazırda James Milların Xəzər Universitetindəki fəaliyyətinin əsas hissəsi İngilis dili və ədəbiyyatı departamentində çalışan və ingilis dilini tədris edən müəllimlərə dərsdə və dərsdənkənar yardım göstərməkdən ibarətdir. Millar, eyni zamanda, ingilis dilində danışıq klubuna da rəhbərlik edir. Yaxın gələcəkdə o, mədəniyyətlərarası anlaşmanı daha da inkişaf etdirmək və ingilis dili bacarıqlarının inkişafına töhfə vermək üçün müxtəlif formalı mədəniyyət tədbirləri və seminarlar keçirməyi planlaşdırır.

Fulbright ABŞ Dövlət departamenti tərəfindən maliyyələşdirilən və ABŞ-ın Bakıdakı səfirliyi tərəfindən idarə olunan proqramdır. Proqram universiteti yeni bitirən məzunlara xaricdə ingilis dilini qeyri-ingilisdilli tələbələrə tədris edən müəllimlərə yardım etməyə imkan verir. Bu proqram çərçivəsində ingilis dilini tədris edən şəxslər həm də ABŞ-ın "mədəniyyət səfirləri" rolunda çıxış edirlər.



# FULBRIGHT SCHOLAR TO ASSIST ENGLISH INSTRUCTORS

Khazar University is hosting Mr. James Millar for the current academic year through the Fulbright ETA (English Teaching Assistantship) Program.

Mr. Millar received his Bachelors of International Relations from Michigan State University's (MSU) James Madison College of Public Affairs, where he also minored in Russian and Eurasian Studies, European Studies, and International Development. There he worked for two years as a research assistant in the Center for European, Russian and Eurasian Studies, as well as the Muslim Studies Program. Through MSU, he also pursued academic programs abroad in Azerbaijan, Turkey, Sri Lanka, India and a FLAS (Foreign Language – Area Studies) award in Latvia.

At Khazar University, Mr. Millar is assigned to the Department of English Language and Literature where he assists English language instructors in and outside of the classroom, leads a conversation club and performs other tasks. In the future, Mr. Millar hopes to hold cultural events and workshops to further facilitate cross-cultural understanding and English language proficiency.

The Fulbright ETA program is funded by the U.S. Department of State and administered by the U.S. Embassy in Baku. The program places recent college graduates in a classroom abroad to provide assistance to teachers of English who instruct non-native English speakers. English Teaching Assistants help teach English language and serve as cultural ambassadors of the United States





## MƏKTƏBİN HAZIRLIQ QRUPUNDA
# "PAYIZ BAYRAMI"

Oktyabrın 23-də "Dünya" məktəbində "Payiz bayramı" adlı tədbir keçirildi. Bayram musiqi qrupunun rəhbəri Sevinc Sultanovanın bəstələdiyi "Qızıl payız" mahnısı ilə açıldı.

Azərbaycan və rus bölmələrində keçirilən bu bayram tədbirində uşaqlara bədii tərtibatda payızın rəngləri, bu fəslin meyvə və tərəvəzlərinin xüsusiyyətləri, sağlamlığa və bədənin inkişafına xeyri haqqında məlumat verildi.

Maraqlı payız personajlari – Payız qızı, Damcı, Meyvələr, Çiçəklər rəngarəng görünüşləri ilə səhnəni bəzədilər. Azərbaycan və rus dillərində səsləndirilən şeirlər, çiçəklərin və meyvələrin rəqsi, balaca həkimin tövsiyəsi səhnədə gözəl harmoniya yaratdı.

İngilis bölməsində də keçirilən məşhur "Halloween" – "Balqabaqlar bayramı" öz rəngarəngliyi ilə uşaqları sevindirdi. Səhnə içərisində şamlar yanan balqabaqlarla bəzədilmişdi.

Payızla qışın görüşü, qış meşəsinin sərtliyi, soyuğu, uğultusunun səhnədə əksi böyük marağa səbəb oldu. Uşaqlar müxtəlif meşə heyvanlarının cildində maraqlı kompozisiyalar yaratmışdılar. Buradakı səhnələr, ingilis dilində səslənən şeirlər, rəqslər bir-birini tamamlayırdı. Səhnə rəqslərini xoreoqraf Qızılgül Əliməmmədova hazırlamışdı.

# ZAVODLARA
## EKSKURSİYA



Oktyabrın 28-də məktəbin V sinif şagirdləri "Təmiz şəhər" ASC-nin Balaxanı Bərk Məişət Tullantılarınm Çeşidlənməsi Zavodu və Bərk Məişət Tullantılarının Yandırılması Zavoduna ekskursiyaya getmişdilər. Səhmdar Cəmiyyətin nümayəndəsi şagirdlərə Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodunun fəaliyyəti barədə ətraflı məlumat verərək, qeyd etdi ki, çeşidləmənin aparılması nəticəsində təkrar emal üçün yararlı olacaq kağız, şüşə, plastik, əlvan metal, dəmir və digər xammallar ayrılır ki, bu da tullantıların ümumi həcmini azaldır, ucuz xammal bazarı formalaşdırır, ölkədə təkrar emal qurulmasına zəmin yaradır, enerjiyə qənaət olunur və ən önəmlisi, tullantıların ətraf mühitə mənfi təsirini azaldır.

Şagirdlərə çeşidləmə və yandırılma prosesləri əyani şəkildə göstərildi və sonda şagirdləri maraqlandıran suallar cavablandırıldı.

# XƏZƏR UNİVERSİTETİNİN "DÜNYA" MƏKTƏBİNİN MÜƏLLİM VƏ ŞAGİRDLƏRİ MİSİR MƏDƏNİYYƏT VƏ TƏHSİL ƏLAQƏLƏRİ MƏRKƏZİNDƏ OLUB

**Oktyabrın 28-də Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzində Xəzər Universitetinin "Dünya məktəbi"nin müəllim və şagirdləri üçün görüş təşkil edilib.**

**Misirin tarixi və mədəniyyəti haqqında film nümayiş etdirildikdən sonra Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin müdiri Əhməd Sami Elaydi qonaqları salamlayaraq, onlara Mərkəzin fəaliyyəti və Azərbaycan mədəniyyət və təhsil ocaqları ilə əlaqələrinin genişləndirilməsi sahəsində aparılan işlər haqqında ətraflı məlumat verib. Bundan başqa, Mərkəzlə "Dünya" məktəbi arasında əməkdaşlıq barədə, "Dünya" məktəbində şagirdlərin Misir uşaq ədəbiyyatı ilə yaxından tanış olmaları üçün bədii qiraət saatlarının, eləcə də Mərkəz tərəfindən uşaqlar və müəllimlər üçün ərəb dili kurslarının təşkil olunması barədə təkliflərin müzakirəsi aparılıb.**

**Görüşün keçirilməsindən hər iki tərəf öz məmnunluq hisslərini bildirərək, belə görüşlərin gələcəkdə də təşkil olunmasının zəruriliyini vurğulayıblar.**





## DUNYA SCHOOL TEACHERS AND STUDENTS VISIT EGYPTIAN CULTURAL AND EDUCATIONAL RELATIONS CENTER



On October 28, teachers and students from Khazar University's affiliate Dunya School visited the Egyptian Cultural Center of the Egyptian Embassy to Azerbaijan.

They watched a film about Egyptian history and culture. Then Ahmad Sami Elaydi, Director of the Egyptian Cultural and Educational Relations Center, greeted the guests and told them about the center's work and its partnerships with Azerbaijani education and cultural institutions. In addition, he led a discussion about partnership between Dunya School and the Cultural Center, including the Center's organization of literary reading hours to teach Dunya students about Egyptian culture as well as Arabic language classes for students and teachers.

Both parties expressed their readiness to proceed with cooperation and organization of similar events.




Oct. 18, 2016

# I'M A MUSLIM IMMIGRANT AND I HAVE FAITH IN AMERICA

*Ozan Varol is a Turkish-born constitutional law professor at Lewis & Clark Law School in Portland, Ore., and the author of the forthcoming book, The Democratic Coup d'État*

I came to America for all the cliché reasons.

As a young boy growing up in Istanbul, America had assumed a dreamlike quality for me, culled from the eclectic set of American television shows selected for translation to Turkish. To me, America was Cousin Larry in Perfect Strangers, who takes Balki, his Eastern European cousin, under his wings in his Chicago home where they perform the "dance of joy" to celebrate good fortune. America was the Tanner family in Alf, who provide shelter to a furry extraterrestrial alien with a penchant for eating their cat.

I thought that if America had a place for the likes of Balki and Alf, perhaps it had a place for me, too.

At the age of 17, I bid farewell to my parents and boarded a plane to study astronomy at Cornell University, with the ultimate goal (influenced in no small part by Hollywood movies) of becoming an astronaut. America immediately embraced me like one of its own—despite my thick accent, broken English, skimpy European jeans and an embarrassing fondness for Bon Jovi music.

I quickly learned that if you asked for

something, and you were willing to work hard for it, America's better angels delivered. Only a week after my arrival, I landed a pinch-me-now job as an operations team member of the 2003 Mars Exploration Rovers mission. The project, supervised by Cornell astronomy professor Steven Squyres, would send two rovers named Spirit and Opportunity to Mars. America gave a 17-year-old boy from a developing country—who, just a few weeks before, was daydreaming about space from his humble home—the opportunity to plan operations scenarios, design imaging algorithms and help select landing sites on Mars.

I channeled my inner Balki and performed the dance of joy. For me, the hope that America was supposed to represent—its spirit and its opportunity–was no longer an abstract, cliché illusion. In America, if you had the spirit, the opportunity would materialize.

But in a brief, fleeting moment, America's demons began to emerge.

When the Twin Towers fell on Sept. 11, the ensuing Islamophobia plagued the nation, and Cornell was no exception. Although I was born in a majority-Muslim country, I never considered

myself a religious person. Yet I found myself the target of bigoted comments from people I had considered good friends. It was the first time I felt like a minority in America.

Although Sept. 11 revealed America's Achilles' heel, America's better angels had not disappeared. They were simply out-voiced by the loud fear-mongering of their demonic counterparts. But if you knew where to look, angels were everywhere: the firefighter who stormed the Twin Towers never to return home, the Marine on a midnight operation against the Taliban, the ordinary American who resisted the simplistic impulse to paint all Muslims as traitors.

This was the paradox of America: its eternal struggle between its demons and better angels.

I came to realize that America's strengths were also its weaknesses. The same country that was born of immigrants could turn against refugees with strange speed. The same country that promised life, liberty and the pursuit of happiness could institutionalize slavery and detain Japanese-Americans. The same country founded on the ideal that all men are created equal could deny equality to women and minorities.

I eventually abandoned my pursuit of astronomy in favor of law school, graduated at the top of my class, and clerked on the U.S. Court of Appeals for the Ninth Circuit. I then received an invitation from Chief Justice John Roberts of the U.S. Supreme Court to interview for a highly coveted clerkship in his chambers.

It felt like Muhammad Ali had called me for boxing tips.

At the end of my interview with Chief Justice Roberts, he asked me this question: "What makes you different from all other clerkship applicants?" I replied, "There lived two men in rural Turkey who spent much of their lives in poverty: Osman the bus driver and Şakir the shepherd. Their grandson is sitting here interviewing with the Chief Justice of the United States."

I didn't get the clerkship, but I knew America would continue to present opportunities as long as I worked hard. A few years later, I found a dream job in academia, as a law professor teaching constitutional law.

Two weeks ago, after 17 years as an alien in the United States, I finally became a citizen. I took my naturalization oath standing shoulder to shoulder with 25 other men and women from 15 different countries.

Virtually all countries admit immigrants. But few would allow a non-citizen from a minority religion, with no familial or personal connections to anyone of importance, the opportunity to work on a space project, clerk on its federal appellate courts, interview for a prized position with its Chief Justice or teach constitutional law to its citizens.

To be sure, America has real demons that it must continue to confront. They're not going to go away if we simply ignore them or accept their emergence as a fait accompli. And even if we manage to expel them, they'll retreat only to emerge stronger for their next battle.

But it's darkest right before dawn. And without the dark, there is no morning of light. America's demons keep us on our toes, remind us to appreciate its angels, and ensure that we remain vigilant to fend off future hazards.

Sometimes, the demons will prevail. The dreams will collapse. The hopes will wither. The fear mongers and the demagogues will triumph. But only temporarily. I'm confident that America's better angels can shake off its less-than-perfect pasts and rally the courage to roar back to life.

I know. For I've been personally struck by America's demons and lifted by her better angels, finally to call it my home

**. http://time.com/4532052/muslim-immigrant-america/**

# AOŞAM-IN DİREKTORU AB-NİN ISSICEU LAYİHƏSİ KONSORSİUMUNUN GÖRÜŞÜNDƏ İŞTİRAK ETDİ

Oktyabrın 14-ü və 15-də Xəzər Universiteti Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin (AOŞAM) direktoru Fərda Əsədov Avropa Komissiyasının Qafqazda Avropa siyasətini tədqiq edən ISSICEU layihəsinin Tbilisidə keçirilmiş beynəlxalq görüşündə iştirak etdi. Görüşdə konsorsiumun üzvləri olan Almaniya, İsveçrə, Rusiya, Gürcüstan, Türkiyə və Azərbaycan universitetlərinin tədqiqat mərkəzləri tərəfindən keçirilmiş tədqiqatların nəticələri təqdim olundu.

Xəzər Univesitetinin tədqiqatları haqqında Fərda Əsədov məruzə etdi. O, layihə çərçivəsində sosioloju sorğu nəticələrinin əldə edilməsini, elmi araşdırma yazılarının təqdim edilməsini, Qafqazda sabitlik yaradan amillərin inkişafına dair Avropa siyasəti üçün tövsiyə paketinin hazırlanmasını layihənin uğurlu göstəriciləri kimi qeyd etdi. Xəzər Universitetinin uğurları konsorsium rəhbərliyi və üzvləri tərəfindən yüksək qiymətləndirildi.

# CEMES CENTER DIRECTOR AT EU ISSICEU PROJECT MEETING

On October 14-15, Dr. Farda Asadov, Director of the Center for Eurasian and Middle East Studies, participated in an international meeting in Tbilisi for the European commission ISSICEU project on European Policy research in the Caucasus. The meeting introduced research results from the research centers of German, Swiss, Russian, Georgian and Turkish partner universities. Dr. Asadov also made a presentation about Khazar University research, including a sociology survey conducted as part of the project and presentations of academic writing, and he noted that the preparation of recommendation packets on European policy regarding development of factors that would provide stability in the Caucasus is a measure of the project's success. Khazar University's achievements were highly evaluated by the consortium leadership and members.





# AOŞAM-IN DİREKTORU MƏŞHƏDDƏ IKI BEYNƏLXALQ ELMİ TƏDBİRDƏ İŞTİRAK ETMİŞDİR

Xəzər Universiteti Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin (AOŞAM) direktoru Fərda Əsədov oktyabrın 15-dən 18-dək İran İslam Respublikasında keçirilmiş iki beynəlxalq tədbirin iştirakçısı olmuşdur. O, UNESCO-nun Mərkəzi Asiya Araşdırmaları İnstitutnun Elmi Şurasının iclasında Azərbaycanı təmsil etmişdir. Bu iclas münasibətilə Məşhəd Firdovsi Universiteti "İpək Yolu"nun tarixi və mədəniyyət mühitinə təsirinə həsr edilmiş beynəxalq konfrans keçirmişdir. Konfransda Fərda Əsədov ərəb coğrafiyaçısı İbn əl-Faqihin Məşhəddə aşkar edilmiş əlyazmasının öyrənilməsi haqqında məruzə ilə çıxış etmişdir.

Tədbir iştirakçıları elmi proqram daxilində Məşhədin Astanə Quds Rəzavi dini, elmi və mədəni kompleksini, Tus şəhərində dahi şair Firdovsinin məqbərəsini ziyarət etmişlər.

# DIRECTOR OF CENTER FOR EURASIA AND MIDDLE EAST STUDIES AT TWO INTERNATIONAL EVENTS IN MASHHAD

Fro October 15-18, Dr. Farda Asadov, Director of the Center for Eurasian and Middle East Studies, participated in two international academic events in Mashhad, Iran. Dr. Asadov represented Azerbaijan at the meeting of the Academic Council of the UNESCO Center Asian Research Institute. This meeting was connected to an international conference at Ferdowsi University of Mashhad on the influence of the Silk Road historical and cultural environment. Dr. Asadov gave a lecture at the conference on manuscripts of Arab geographer Ian al-Fagihi that were discovered in Mashhad. The academic program also included tours of the Astane Guds Razavi religious, academic and cultural complex and to the Firdowsi monument in the city of Tus.



TIME

Sept. 29, 2016

# Why We're Addicted to Email- and What to do About It

Jocelyn K. Glei



In today's digital world, we're often expected to be on email at all times. Recent studies show that office workers spend almost a third of their total workday reading and responding to messages. This constant connectivity can be harmful: scientists have established a clear link between spending time on email and feeling stress.

It seems irrational. Why do we spend so much time doing something that has such a negative impact on our well-being? The fact of the matter is that even though we may not care for the content of every email we receive, many of us are addicted to the act of checking email. It activates a primal impulse in our brains to seek out what behavioral psychologists call "random rewards."

Imagine that your email is like a slot machine. Most of the time when you "pull the lever" to check your email messages, you get something disappointing or bothersome—a communication from a frustrated client or a boss with an urgent request. But every once in awhile you pull the lever and you get something exciting—an email from a long-lost friend, a flattering request to speak at a conference, or (if you're really lucky) a video of goats jumping on things. And it's those random rewards, mixed in with all the mind-numbing updates and irksome requests that we find so addictive. They make us want to check our email again and again and again, even when we have better things to do.

But striving for inbox zero is, of course, a Sisyphean effort at best. Just when you think the task is complete—ping!—a new message rolls in. And then another. And another. The work will never be done, and yet email still inspires this strange sense of obligation. The more unread messages we have in our inboxes, the more anxious we feel. The more time that passes before we can reply to a message, the more we apologize. How many times have you started an email with, "I'm sorry I couldn't get back to you sooner but…"? Somewhere deep down we truly feel that we owe everyone a response.

For family, friends and coworkers this seems natural. We have long-standing relationships with them, so feeling an obligation to reply to their messages makes sense. But what about complete strangers? Why do we feel guilty if we can't respond to someone we don't even know?

Numerous experiments have shown that

humans tend to adhere to the rule of reciprocity in social interactions. At its most basic level, this means that we want to respond to a positive action with another positive action. If someone does a favor for us, we want to return the favor, even if—and this is the crucial distinction—that "favor" wasn't something we necessarily wanted.

The mere fact that someone took the time to write you an email activates a deep-seated social behavior, the desire to reciprocate like with like. In most social situations, of course, this is good—it leads to the type of cooperative human behavior that has served us well as a species.

But in the context of email, it can create unrealistic expectations for how much we can take on. This is because there's a fundamental imbalance in how much email you can receive (an infinite amount) and how much you can actually respond to (a limited amount). We feel a strong desire to reciprocate when someone sends us a message, yet we rarely have the bandwidth to respond to every single message. And it is this tension—between what we feel we should do and what we know we can do—that breeds email anxiety.

That's why it's time to let go of inbox zero. To admit that it's an addictive game rather than a meaningful goal. To release ourselves from the anxiety of trying to respond to everything in a world where the amount of updates, inquiries, and requests we receive in a single day could easily consume our time and attention for a week. In a digital world, reciprocity is a losing game.

Productivity is no longer about keeping up, or keeping busy, or having it all. It's about being deliberate and being focused. It's about spending more time deciding and less time doing. It's about getting really clear on what matters to you and letting the rest go.

Your unread message count is not an audit of your productivity. (Zero, quite literally, means nothing.) With email—as with everything else in life—you must say "no" to some opportunities, in order to say "yes" to your priorities.

http://time.com/4507842/unsubscribe-email-addiction/



*Barking Up the Wrong Tree Blog*

*Eric Barker*

# 3 QUICK TIPS FOR BEING MORE CREATIVE

1) First, try to make yourself happier. Even just watching a short comedy clip can help:

Via Jonah Lehrer's book Imagine: How Creativity Works:

Beeman has demonstrated that people who score high on a standard measure of happiness solve about 25 percent more insight puzzles than people who are feeling angry or upset. In fact, even fleeting feelings of delight can lead to dramatic increases in creativity. After watching a short, humorous video— Beeman uses a clip of Robin Williams doing standup—subjects have significantly more epiphanies, at least when compared with those who were shown scary or boring videos. Because positive moods allow us to relax, we focus less on the troubling world and more on these remote associations.

2) Try to do your creative problem solving when you first wake up, or whenever you're drowsy:

Another ideal moment for insights, according to Beeman and John Kounios, is the early morning, shortly after waking up. The drowsy brain is unwound and disorganized, open to all sorts of unconventional ideas. The right hemisphere is also unusually active. "The problem with the morning, though," Kounios says, "is that we're always so rushed. We've got to get the kids ready for school, so we leap out of bed, chug the coffee, and never give ourselves a chance to think." If you're stuck on a difficult problem, Kounios recommends setting the alarm clock a few minutes early so that you have time to lie in bed. We do some of our best thinking when we're half asleep.

3) Don't try too hard — it's counterproductive:

One of the surprising lessons of this research is that trying to force an insight can actually prevent the insight. While it's commonly assumed that the best way to solve a difficult problem is to relentlessly focus, this clenched state of mind comes with a hidden cost: it inhibits the sort of creative connections that lead to breakthroughs. We suppress the very type of brain activity that should be encouraged.

http://www.bakadesuyo.com/2012/03/3-quick-tips-for-being-more-creative/

# RUSCA-TÜRKCƏ RİYAZİYYAT LÜĞƏTİ
## ÇAP OLUNUB

2016-cı ildə Londonda Gülnarə Cəfərlinin tərtib etdiyi Rusca-türkcə riyaziyyat lüğəti çap olunmuşdur. Kitabın redaktoru və elmi məsləhətçisi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır.

Kitabda redaktor və müəllifin hər ikisindən üç dildə (Azərbaycan, rus, türk) ön söz yer almışdır.




# NEW RUSSIAN-TURKISH MATHEMATICS
## DICTIONARY PRINTED

In 2016, the Russian-Turkish Mathematics Dictionary compiled by Gulnara Jafarli was printed in London. The editor and consultant of the dictionary is Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

The foreword to the book in three languages (Azerbaijani, Russian and Turkish) was written by Professor Hamlet Isaxanli.

# COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI KOREYADA KONFRANSDA

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin əməkdaşları Rövşən Abbasov və Rövşən Kərimov oktyabrın 11-dən 16-dək Koreyanın Seul şəhərində keçirilən "İstixana qazlarının inventarlaşdırılması" adlı beynəlxalq konfransda iştirak etmiş və təqdimat keçirmişlər.

# FACULTY MEMBERS OF DEPARTMENT OF GEOGRAPHY AND ENVIRONMENT AT CONFERENCE IN KOREA

On October 11-16, Dr. Rovshan Abbasov, Chair of the Department of Geography and the Environment, and Rovshan Karimov, faculty member, attended and made presentations at the Greenhouse Gas Inventory international conference in Seoul, Korea.

# AVRASİYA BİLİK MƏRKƏZİNİN
## YENİ SAYTI AÇILDI

Xəzər Universitetində fəaliyyət göstərən Avrasiya Bilik Mərkəzi özünün yeni saytını yaratmışdır. Yeni sayt mərkəzin inkişaf meneceri Nəzakət Əzimlinin və universitetin IT üzrə meneceri Fərid Musayevin köməkliyi ilə ərsəyə gəlmişdir.

Sayt 2 dildədir, Xəzər Universiteti və digər partnyor təşkilatların loqosu aktivdir. Mərkəzin indiyə qədər 400-ə yaxın məzun ordusunun olmasını və mütəmadi təlimləri nəzərə alsa, gələcəkdə saytın kifayət qədər istifadəçi və izləyicisi olacağını gözləmək olar.

Sayta bu link vasitəsilə daxil olun: http://eurasiahub.khazar.org/

# EURASIA KNOWLEDGE HUB
## OPENS NEW SITE

The Eurasia Knowledge Hub operating within Khazar University opened a new website with the help of Nazakat Azimli, the center's development manager and Farid Musayev, the university's IT manager.

The site is in two languages and includes the logos of Khazar University and other partner organizations. Taking into account the nearly 400 Hub training graduates and the constant stream of new trainees, high traffic on the site is expected. The site is available at the following link: http://eurasiahub.khazar.org/





## TƏHSİL FAKÜLTƏSİNDƏ PRAKTİKAYA GEDƏN TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

Oktyabrın 3-də Xəzər Universiteti Təhsil fakültəsinin "Passiv pedaqoji praktika"ya gedən tələbələri ilə görüş keçirildi. Görüşdə fakültənin dekanı Elza Səmədova və müavinləri, həmçinin Təhsil departamentinin müdiri Qoşqar Məhərrəmov iştirak edirdilər. Görüşdə pedaqoji təcrübə haqqında məlumat verildi və yaxa kartları paylanıldı.

Sonda E.Səmədova tələbələrin suallarını cavablandırdı.

## "FƏRQLİ DÜNYALAR" ADLI RƏSM SƏRGİSİ



Oktyabrın 7-də Xəzər Universitetində Tələbə Məclisinin təşkilatçılığı ilə uşaq evlərində və ailədə böyüyən uşaqların birgə çəkdikləri "Fərqli dünyalar" adlı rəsm sərgisi keçirildi. Çəkilən rəsmləri bir mövzu birləşdirirdi: "Mənim dünyam". Bu da uşaqlara öz daxili aləmlərini nümayiş etdirmək üçün imkan yaratmışdı.

Layihənin məqsədi fərqli qrup uşaqların bir-birinə inteqrasiyası sayəsində aralarındakı fərqliliyin azaldılması idi.




# MƏMMƏD ARAZ POEZİYA GÜNÜ

*Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi, şair, tədqiqatçı Qardaşxan Əzizxanlının təşəbbüsü və təşkilatçılığı ilə respublikada ilk dəfə olaraq Məmməd Araz poeziya günü keçirilib.*

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda şairin məzarını ziyarət ediblər. Qardaşxan Əzizxanlı, tanınmış şair Musa Yaqub, BDU-nun professoru Cahangir Məmmədli və şair Zakir Fəxri Məmməd Arazın çoxəsrlik poeziya gülüstanımıza bənzərsiz töhfələr verməsindən danışmış, görkəmli şairin bu gün də geniş oxucu kütləsi tərəfindən sevilə-sevilə oxunmasından söhbət açıblar.

Ziyarət mərasimində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin sədri Afaq Məsud, həmçinin müxtəlif təşkilatlardan nümayəndələr iştirak ediblər.

Sonra tədbir Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda davam etdirilib. AYB-nin katibi İlqar Fəhmi çıxış edərək, şairin anım gününün indən belə poeziya günü kimi keçiriləcəyini diqqətə çatdırıb.

Tədbirin aparıcısı Qardaşxan Əzizxanlı Məmməd Araz şəxsiyyəti barədə danışaraq bildirib ki, o, ictimai hadisələri mədh etməyən, xalqın arzu və istəklərinin carçısı, ruhunun, mənəviyyatının keşikçisi kimi yadda qalıb.

Tanınmış şairlər Musa Yaqub, Çingiz Əlioğlu, Əlişirin Şükürlü, Kəmaləddin Qədim, Nuranə Nur və digərləri çıxış edərək, belə bir poeziya gününün davamlı olaraq keçirilməsini dəstəkləyiblər. Natiqlər Məmməd Arazın mənalı, keşməkeşli və şərəfli, bütövlükdə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşadığını söyləyiblər. Bildiriblər ki, Məmməd Araz ədəbiyyatımızın, poeziyamızın fəlsəfi dəyərini artırıb, onun əsərlərində Vətən sevgisi, milli dəyərlər, insan mənəviyyatı ön planda verilib. Ona görə də şairin yaradıcılığı yaddaşlara həkk olunaraq, daim seviləcək. Onlar Məmməd Arazla bağlı xatirələrini bölüşərək, onun mübarizliyindən, əyilməzliyindən söhbət açmış, misraları ilə öz tərcümeyi-halını yazan şairin şeirlərinin oxucunu bütün zamanlarda düşündürəcəyini vurğulayıblar.

Poeziya günündə məktəblilərin ifasında "Bizi vətən çağırır", "Üstümə qayıdan yazılarım", "Getdilər", "Bu insan adlanan insan" şeirləri səsləndirilib. Həmçinin, "Dünya sənin, dünya mənim..." şeiri Xəzər Universiteti Təhsil fakültəsinin dördüncü kurs tələbəsi Nigar Hacıyeva tərəfindən ingilis dilində oxunub.

Bütün iştirakçılara minnətdarlığını bildirən şairin qızı İradə Tuncay vurğulayıb ki, Məmməd Araz ömrü boyu hər cür siyasi konyunkturadan uzaq olmaqla, yalnız ədəbiyyatın əzəli və əbədi qanunlarına istinad etməklə, hələ sovet dövründə Azərbaycanın bu günü ilə səsləşən dəyərli əsərlər yaradıb. O, ulu Nizaminin söz sənətini yaşadıb, Füzuli, Nəsimi, Vaqif və Səməd Vurğunun yaratdığı anadilli poeziyamızın şəhdini, şəkərini bu günümüzə gətirib.

Tədbirdə, həmçinin, Məmməd Arazın əlyazmalarından ibarət "Qarabağ simfoniyası" adlı kitab təqdim edilib.



## SEMİNAR: "KOMPÜTER VƏ DİL BİLİKLƏRİNİN GÜNDƏLİK HƏYATIMIZDA ROLU"

Oktyabrın 18-də Xəzər Universiteti Tələbə Məclisi "Kompüter və dil biliklərinin gündəlik həyatımızda rolu" adlı seminar təşkil etdi. 50-dən çox tələbənin iştirak etdiyi tədbirdə iştirakçılara yeni məlumatlar verildi. Təlimçi tələbələri maraqlandıran sualları cavablandırdı.

EDU Company Təhsil Mərkəzinin təşkil etdiyi bu seminar 1-ci kurs tələbələri üçün, xüsusilə, maraqlı oldu.

## STUDENT UNION HOLDS SEMINAR ON "THE ROLE OF COMPUTER AND LANGUAGE SKILLS IN DAILY LIFE"

On October 18, the Khazar University Student Union held a seminar entitled "The Role of Computer and Language Skills in Daily Life." Over 50 students had registered for the seminar. Participants learned new information about computers and daily life. They also asked the trainer many questions. This training was led by EDU Company Training Center and was especially useful for first-year students.




Azərbaycan tarixinin ən mühüm günlərindən biri - 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi günü Xəzər Universitetində Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə Azərbaycan tarixi dərslərində də qeyd edildi.

Departamentin müəllimi Ülviyyə İbrahimlinin rəhbərliyi ilə dövlət müstəqilliyimizin bərpa olunmasının 25-ci ildönümü ilə əlaqədar müzakirələr aparıldı, tarixi xronikaya nəzər salındı, bu müstəqilliyin bərpası və qorunub saxlanmasında payı olan və bu yolda həyatını qurban vermiş bütün insanlar yad edildi.

# THE SIMPLE TRICK THAT HELPED ME BALANCE MOTHERHOOD AND MY CAREER



## SARAH PERRY

Oct. 27, 2016

Now I enjoy the best of both worlds.

If you're a working mom, I am sure that — like me — you've often wished you could clone yourself. For me, the first iteration would be a traditionally "perfect" mom who bakes cookies, is an active member of the school board and can always be there for her children. The second would be a high-achieving, successful entrepreneur. Unfortunately, human cloning isn't an option yet and like 56% of other working parents in America, I needed to learn to balance my career and parenthood.

The opportunity to build my company came along a little too soon, when both my children were aged under three. In an ideal world, they would have been older before I started working again. But opportunities don't often come gift wrapped and I realized it was worth "grabbing it with both hands" and working out the details as I went. I had to make some tough decisions regarding what is truly important and what I could stop doing.

The 80-20 rule or "Pareto principle" is a well-known business principle stating that 20% of what you do should have 80% of the impact. For example, 80% of your revenues come from 20% of your customer list and in knowing this, you can make better decisions regarding where to spend your time. I think that the same rule applies to raising a family.

I noticed that my children don't really care if a birthday cake is home-made, but they do care about the icing and the candy on top. So now I buy a cheap cake from the supermarket and spend my time on the icing (which might be bought too). The "metaphorical icing" applies to most things in life. So I say: let the 80/20 rule be your guide and savior. Embrace the fact that 80% of the things society says you "should do," don't actually make much of a difference. Here's how I break it down:

Society says: "You should spend all of your time with your children."

I say: "Spend quality time with your children, and fudge on everything else."

Read to your children at bed time. Bathe them when they are little. Play a board game every now and then. Eat dinner together. Enjoy a family movie night. Savor the most important moments in their lives.

Don't feel bad not being able to watch them play in the park. Don't wait until they go to sleep to clean and get organized. Don't feel like you always have to be the one to drive them to activities. Yes, you may miss some of the everyday moments of growing up, the tradeoff is that you'll have time to focus on other things that also matter to your family: your business.

In order to make this tradeoff, I asked for help. I planned and co-ordinated with other moms to arrange play dates and carpooling to give me maximum windows of time focusing on work, but to still be available for the children when they really needed me. And now that my business has taken off, I rely on the help of our beloved babysitter.

Society says: "Good mothers help out on the PTA and at the school fair."

I say: "This mother makes a living so she can spend it at the school fair and pay her school fees."

Being a working mom can quickly become an endless guilt trip, whether it's to attend long parent committee meetings or plan the next school fair. Pitch in when and where you can, but don't overextend yourself.

When I first started working on my company, I had a mantra written on a card (which I kept close) that I used to read myself every time I felt guilty. It said: "The children are happy and healthy and I am working to create the best possible future for them. If my children blame me for being a bad mother in the future, I'll know I did the best I could."

It was surprising how often that card helped me stop guilt in its tracks. It helped me realize that guilt is a pointless energy-sapping emotion. Generally if you are happy, the children are happy too. Plus, working hard and being entrepreneurial makes you a great role model for them.

Whenever you're feeling guilty for missing something, put that guilt into context. So you couldn't make a cake from scratch for the bake sale. You're supporting your family in a different way — be proud!

Society says: "CEOs should be working around the clock."

I say: "I need my sleep, too."

The 80/20 rule applies to my work hours, as well. I value my creativity, positivity and energy. Lack of sleep squashes those things. I'm all for a nap or a lay-in if I need it. Listen to your body first and foremost. An exhausted, grumpy mom or manager is never a good thing.

There are a lot of expectations on working moms and creating a 'new normal' requires defending. I recently had to push back on a well-meaning board adviser who implied that I should be working 60 hours per week if I want to be a good CEO. I say: I'm a good CEO if my business is thriving, my employees are happy and my family knows that I will always make time for them.

So while cloning may not be an option in the foreseeable future, for the time being I'm staying focused on my priorities: family and business. There will be plenty of time for other stuff later.

Sarah Perry is the CEO of SnapComms, an award-winning internal communications software company, and the mother of two children. http://motto.time.com/4528398/working-moms-80-20-rule-work-life-balance/



## MÜSTƏQİLLİK GÜNÜNƏ HƏSR OLUNMUŞ II BİLİK YARIŞI

Oktyabrın 18-də Xəzər Universiteti Tələbə Məclisi Azərbaycan Respublikasının Müstəqillik Gününə həsr olunmuş II Bilik yarışı keçirdi. 16 komandada 48 iştirakçının qatıldığı yarışda universitetin xarici tələbələri də mübarizə aparırdılar. 2 komanda ilə təmsil olunun xarici tələbələrimiz yüksək səy göstərərək, ikinci mərhələyədək gəlmişdir. Ümumi 3 mərhələdən ibarət olan yarışda sonda 4 komanda mübarizə aparmış, 3 komanda qalib oldu. Sıralama aşağıdakı kimidir:



"CARPE-DIEM"
Mühəndislik və tətbiqi elmlər fakültəsi
1



"QIZIL DİŞLƏR"
Humanitar və sosial elmlər fakültəsi
3



"THREE LEGENDS"
Humanitar və sosial elmlər fakültəsi
2



"BURGER"
Mühəndislik və tətbiqi elmlər fakültəsi.
4

## FRANSA-AMERİKA BİZNES MƏKTƏBİ İLƏ İKİNCİ GÖRÜŞ

Oktyabrın 19-da Fransa-Amerika Biznes Məktəbinin (CEFAM) nümayəndələri ilə Xəzər Universitetinin "Neftçilər" kampusunda görüş keçirildi.

Görüş ötən dərs ilinin sonunda başlayan əməkdaşlığın davamı olaraq keçirildi. Xatırladaq ki, ilk görüş 2016-cı il iyunun 2-də keçirilmişdi.

Bu dəfə keçirilən görüşdə Fransa-Amerika Biznes Məktəbini Lion şöbəsində Beynəlxalq İnkişaf və Layihə direktoru vəzifəsində çalışan Valida Mechri və məktəbin elmi işlər üzrə mütəxəssisi Kathryn Guillot təmsil edirdilər. Xəzər Universiteti isə İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, İqtisadiyyat və menecment departamentinin müdiri Ceyhun Məmmədov və Beynəlxalq Əlaqələr Şöbəsinin direktoru Turan Cəfərova ilə təmsil olunurdu.

Görüşdə müzakirə olunan əsas məsələ gələcək akademik əməkdaşlıqla bağlı idi. Xüsusi diqqət Erasmus+ proqramı, eləcə də, iki universitet arasında qarşılıqlı anlaşmalar çərçivəsində tələbə və işçi mübadiləsi məsələlərinə verilmişdi. Bu iki müəssisə arasında anlaşma memorandumunun imzalanması qərara alındı.

## MEETING WITH CEFAM, INTERNATIONAL SCHOOL OF BUSINESS AND MANAGEMENT – LYON AND USA

On October 19, a meeting with representatives of the International School of Business and Management – Lyon and USA (CEFAM) was held on the Neftchiler campus of Khazar University.

The meeting was a follow-up on collaboration that started at the end of the last academic year. The first meeting with CEFAM took place on June 2, 2016.

At the follow-up meeting, CEFAM was represented by Valida Mechri, International Development and Project Manager at Groupe IGS Lyon, and Kathryn Guillot, Academic Specialist at CEFAM. Participants from Khazar University included Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management, Dr. Jeyhun Mammadov, Head of the Department of Economics and Management, and Ms. Turan Jafarova, Director of the International Affairs Office.

Topics discussed during the meeting included possible means of future academic collaboration. Specific attention was given to partnering within the Erasmus Plus programme as well as to direct exchange of students and staff between the two universities.





## BEYNƏLXALQ BİZNES MƏKTƏBİ XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ ÜÇÜN TƏQDİMAT KEÇİRDİ

Oktyabrın 20-də Lion Beynəlxalq Biznes Məktəbi (CEFAM) Xəzər Universitetinin "Neftçilər" kampusunda İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün təqdimat keçirdi.

Təqdimatı Beynəlxalq Biznes Məktəbinin akademik işlər üzrə mütəxəssisi Kathryn Guillot apardı. O, tələbələrə Beynəlxalq Biznes Məktəbi, mövcud proqramlar, xaricdə təhsil imkanaları, Lionda həyat və s. haqqında məlumat verdi. Beynəxalq Biznes Məktəbini təmsil edən digər nümayəndə də təqdimatda iştirak edirdi.

Təqdimat sualların cavablandırılması ilə başa çatdı.

## PRESENTATION OF CEFAM INTERNATIONAL SCHOOL OF BUSINESS AND MANAGEMENT AT KHAZAR UNIVERSITY

On October 20, the International School of Business and Management in Lyon (CEFAM) conducted a presentation for students of the School of Economics and Management. The presentation took place on the Nefcthiler campus.

The presentation was conducted by Ms. Kathryn Guillot, Academic Specialist at CEFAM. Ms. Guillot informed the students about CEFAM, its programs, study abroad opportunities, life in Lyon, and provided other information. Ms. Valida Mechri, International Development and Project Manager at Groupe IGS Lyon, also took part in the presentation.

The presentation ended with a question and answer session.

# MÜƏLLİMİMİZ ELMLƏR DOKTORLUĞU DİSSERTASİYASI MÜDAFİƏ EDİB



Xəzər Universiteti Təhsil fakültəsinin müəllimi Rəvan Rəhimov oktyabrın 21-də "Təbii triqliseridlər, (alkanol) aminlər və (C3) epoksidlər əsasında yeni səthi-aktiv maddələrin sintezi və tədqiqi" mövzusunda elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini müdafiə edib. İxtisaslaşmış Şura tərəfindən kimya üzrə elmlər doktoru elmi dərəcəsinə layiq olduğu qənaətinə gəlinib.

R.Rəhimov 130-dan çox elmi əsərin həmmüəllifidir. Onlardan 65-dən çoxu məqalə, 3-ü isə Azərbaycan Respublikasının patentidir. Məqalələrdən 30-dan çoxu xarici ölkələrin (Almaniya, İngiltərə, Ukrayna, Koreya, ABŞ, Yaponiya, Malayziya, Efiopiya, Rusiya, həmçinin dünyanın ən nüfuzlu redaksiyaları olan "Elsevier", "Springer" və "Taylor & Francis") jurnallarında dərc olunub. Onlardan 15-i "Thomson Reuters" Agentliyinin siyahısına düşən jurnallardır.

Qeyd edək ki, 2011-ci və 2014-cü illərdə R.Rəhimovun tədqim etdiyi layihələr Azərbaycan Respublikası Prezident yanında Elmin İnkişafı Fondu tərəfindən keçirilən Gənc Alim və mütəxəssislərin qrant müsabiqələrinin qalibi olub.



## YUNUS ƏMRƏ İNSTİTUTUNUN "XƏZƏR"İN TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜ

Oktyabrın 20-də Yunus Əmrə İnstitutu Xəzər Universitetinin tələbələri ilə görüş keçirdi. Görüşdə tələbələrə institutun gördüyü işlər barədə videoçarxlar təqdim olundu, Türkiyədə təhsil almaq arzusunda olan tələbələr üçün türk dili kurslarının təşkil olunması, türk ədəbiyyatının ən böyük şair və yazıçılarından biri olan Ə.H.Tanpınar haqqında "Əhməd Hamdi Tanpınarı kəşf edirəm" devizi altında keçiriləcək məqalə-esse yarışması haqqında geniş məlumat verildi.

İnstitutun gördüyü işlər və təqdim etdiyi proqramlar tələbələrin dərin marağına səbəb oldu. Sonda Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri dosent Vurğun Əyyub təqdimat və təkliflərə görə qonaqlara təşəkkür etdi, tələbələri dil kurslarında və Ə.H.Tanpınarla bağlı yarışmada iştirak etməyə çağırdı.

## YUNUS EMRE INSTITUTE MEETING WITH KHAZAR STUDENTS

On October 20, representatives of the Yunus Emre Institute met with Khazar University students. Students watched a video about the Institute and were given information about Turkish classes for students wishing to study in Turkey as well as the upcoming "Discover Ahmet Hamdi Tanpinar" essay competition dedicated to the great Turkish poet and writer.

The students demonstrated interest in the activities and programs of the Institute. At the end of the event Associate Professor Vurghun Eyyub, Chair of the Azerbaijani Language and Literature Department, thanked the guests for their presentation and encouraged the students to participate in the language classes and the Ahmet Hamdi Tanpinar writing contest.

## "XƏZƏR"İN MÜƏLLİMİ "ƏDƏBİYYAT QƏZETİ"NİN "MÜZAKİRƏ SAATI"NDA

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi dosent Dilbər Zeynalova oktyabrın 20-də "Ədəbiyyat qəzeti"nin redaksiyasında keçirilmiş "Müzakirə saatı"nda iştirak etmişdir. Tədbirdə müasir Azərbaycan ədəbiyyatşünaslığının nəzəri-metodoloji problemləri, Azərbaycan ədəbi-estetik fikrinin inkişafının əsas istiqamətlərini müəyyənləşdirən ədəbiyyatşünaslıq konsepsiyaları, eləcə də, rus ədəbiyyatşünaslığının Azərbaycan ədəbiyyatşünaslığına elmi-nəzəri fikir vasitəsilə təsir mexanizmi, dünya ədəbiyyatının Azərbaycan ədəbiyyatına təsiri və s. mövzular ətrafında elmi müzakirələr keçirilmişdir. Müzakirə materialları qəzetin 22 oktyabr 2016-cı il tarixli nömrəsində dərc edilmişdir.

Yazını bu linklər vasitəsilə də oxumaq olar: http://kulis.lent.az/news/16305; http://www.kulis.az/news/16343. http://axar.az/news/114399



## VORKŞOP TƏLİMİ:
# “KARYERA VƏ HƏYATIN PLANLANMASI”



Oktyabrın 21-də Xəzər Universiteti Karyera mərkəzi universitetin müxtəlif fakültələrinin tələbə və məzunları üçün “Karyera və həyatın planlanması” mövzusunda vorkşop təlimi keçirdi. Təlimdə tələbələrin öz sahələrinə olan maraq dərəcəsi öyrənildi.

Gələcəyə dair planlar, peşəkarlığa gedən yollardan danışıldı, tələbələrin suallarına aydınlıq gətirildi. Karyeranın qurulması, haradan və necə başlamağın lüzumu barədə söhbət aparıldı.

## CAREER CENTER HOLDS
# “CAREER AND LIFE PLANNING” WORKSHOP



On October 21, the Khazar University Career Center held a workshop for students and alumni on career and life planning. Participants in the workshop included students from multiple Schools of the university and alumni. Ulviyya Huseynova, Career Center Coordinator, organized the training, during which trainers asked to what degree students were interested in their own fields.

The training also covered making plans for the future, roads to professionalism, and topics of students’ interest. They discussed how to establish a career, including where and how to start planning.



# AMERİKAN UNİVERSİTETİNİN PROFESSORU ABŞ-DA SEÇKİLƏRDƏN DANIŞDI

Oktyabrın 24-də Xəzər Universitetinin Siyasi elmlər və beynəlxalq əlaqələr departamentinin təşkilatçılığı ilə keçirilən görüşdə Amerikan Universitetinin siyasi elmlər üzrə tanınmış professorlarından biri Dr. James Thurber ABŞ-da prezident seçkilərindən bəhs etdi. Dr. Thurber ABŞ-da baş verən siyasi proseslər, o cümlədən, namizədlərin seçilməsi, siyasi konvensiyalar və seçki sistemi haqqında ümumi məlumat verdi.

Çıxışdan sonra Dr. Thurber tələbələrin bu seçkilərin ABŞ-ın Şimali Amerika Azad Ticarət Assosiasiyası və Avropa ölkələri ilə münasibətlərinə, insan haqlarına və beynəlxalq ticarətə necə təsir edəcəyi barəsində suallarını cavablandırdı. Sonra Dr. Thurber Xəzər Universiteti Siyasi elmlər və beynəlxalq əlaqələr departamentinin müdiri Dr. Muxtar Hacızadə ilə görüşdü və ona hədiyyə olaraq öz kitabını verdi.





# DR. JAMES THURBER OF AMERICAN UNIVERSITY SPEAKS ABOUT U.S. ELECTIONS

On October 24, the Department of Political Science and International Relations of Khazar University hosted Dr. James Thurber, Distinguished Professor of Government at American University, Washington D.C. to discuss the upcoming elections in the United States. Dr. Thurber provided a general overview of the U.S. political process, including the nomination of presidential candidates, the political conventions and the Electoral College. He also spoke about the important issues in domestic politics in the United States that gave rise to each of the current presidential nominees, Hillary Clinton and Donald Trump.

Students asked a range of questions about how the U.S. elections will affect its relations with the NAFTA and European countries, human rights and world trade. Dr. Thurber also met with Dr.

Mukhtar Hajizada, Department Chair, who thanked him for the gift of his book American Gridlock: The Sources, Character, and Impact of Political Polarization.







## HAMLET İSAXANLI SÜTÇÜ İMAM UNİVERSİTETİNDƏN GƏLƏN HEYƏTİ QƏBUL ETDİ

Oktyabrın 28-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Kahramanmaraş Sütçü İmam Universitetinin rektoru professor Durmuş Deveci, prorektor İbrahim Solak, İctimai Nəzarət Koalisiyası İH-nin sədri, Sabitlik və İnkişaf Mərkəzi İB-nin sədri, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi İH-nin vitse-prezidenti ilə görüşdü.

Görüşdə Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı və İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli iştirak edirdilər.

## HAMLET ISAXANLI RECEIVES GUESTS FROM SUTCU IMAM UNIVERSITY

On October 28, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, received guests from Kahramanmaras Sutcu Imam University of Turkey including Durmus Deveci, Rector; Ibrahim Solak, Vice Rector; the Chairman of the Public Relations Committee; the Chairman of the Center for Stability and Development; and the Vice President of the World Azerbaijanis' Cultural Center.

Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs; and Alovsat Amirbeyli, Director for Public Relations and Media, also participated in the meeting.

## HAMLET İSAXANLININ RƏY VERDİYİ KİTAB ÇAP OLUNUB

"Oğuz" Müstəqil Araşdırmaçılar Qrupunun layihəsi və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "On yeddi illik mübarizə: Azərbaycanda sovet işğalına qarşı milli müqavimət hərəkatı. 1920-1937" adlı kitab çapdan çıxmışdır.

Kitabın rəyçilərindən biri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar: http://xalqqazeti.com/az/news/politics/77398.

# "XƏZƏR"İN ƏMƏKDAŞLARI ELMİN İNKİŞAFI FONDUNDAN QRANT QAZANDILAR

Xəzər Universitetinin əməkdaşları Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən 2015-ci ildə elan edilmiş (EİF-KETPL-2015-1(25)) "Kompleks Elmi-Tədqiqat Proqramları üzrə layihələr" Qrant proqramı müsabiqəsinin qalibi olmuşlar. Qrant "İslanma qabiliyyətinin dəyişməsinin nəzəri və eksperimental tədqiqi və onun karbohidrogen hasilatına mümkün təsiri" mövzusuna həsr edilmişdir və 24 ay müddətində yerinə yetiriləcək.

Layihənin rəhbəri Neft-qaz mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalovdur. Departamentin müəllimi və doktorantı İzat Şahsenov, Elektronika və telekommunikasiya departamentinin müdiri Nuru Səfərov və Tədris işləri üzrə prorektor, professor Məhəmməd Nuriyev layihənin içraçılarıdır. Qrant layihəsində, həmçinin, AMEA Neft və Qaz İnstitutu , Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Neft Mühəndisləri Cəmiyyətinin əməkdaşları da iştirak edəcəklər.

Qrant müsabiqəsinin nəticələri haqqında geniş məlumatı aşağıdakı linklərdən əldə etmək olar:
http://sdf.gov.az/development/uploads/cari_qrant/elan_siyahi_-ketpl-2.pdf
http://sdf.gov.az/development/uploads/cari_qrant/press-reliz_-_neticeler_ketpl-2.pdf
http://sdf.gov.az/development/uploads/cari_qrant/elan_netice_-ketpl-2.pdf

# KHAZAR FACULTY MEMBERS WIN GRANT FROM SCIENCE DEVELOPMENT FOUNDATION

Khazar University faculty members submitted a grant proposal to the 2015 call for proposals (EİF-KETPL-2015-1(25)) for "Projects on Complex Scientific Research Programs" by the Science Development Foundation under the President of the Republic of Azerbaijan, and their grant was selected for funding.

The grant proposal is entitled "Theoretical and Experimental Investigations of Wettability Alteration and its Potential Impact on Hydrocarbon Recovery." It will be implemented over 24 months. The grant coordinator is Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering. The project team also includes Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; Dr. Nuru Safarov, Head of the Department of Electronics, Telecommunications and Radio Engineering; and Izat Shahsanov, instructor and PhD student of the Department of Petroleum Engineering. Other project partners include the Oil and Gas Institute of Azerbaijan National Academy of Sciences, Azerbaijan State Oil and Industrial University; Baku Higher Oil School; and Azerbaijan Society of Petroleum Engineers.

More detailed information about the grant is available at the following links:
http://sdf.gov.az/development/uploads/cari_qrant/elan_siyahi_-ketpl-2.pdf
http://sdf.gov.az/development/uploads/cari_qrant/press-reliz_-_neticeler_ketpl-2.pdf
http://sdf.gov.az/development/uploads/cari_qrant/elan_netice_-ketpl-2.pdf

# XƏZƏR UNİVERSİTETİNDƏ "MÜZEY GÜNLƏRİ"

Oktyabr ayında Xəzər Universiteti Tarix və arxeologiya departamenti tərəfindən "Müzey günləri" elan edilmişdir. Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova və müəllimləri X.Balayev, G.Novruzova, Ü.İbrahimova, N.Yaqublu Azərbaycan Tarixi Müzeyində ekskursiyalar təşkil etdilər.

İqtisadiyyat və menecment fakültəsi, Humanitar və sosial elmlər fakültəsi və Təhsil fakültəsinin tələbələri "Azərbaycan tarixi" fənninin bir dərsini Azərbaycan Tarixi Müzeyində keçdilər.





# UMBERTO EKO

1932-2016
İtaliya

## BABİL SÖHBƏTİ
(Hekayə)

- Bu mixi yazım xoşuna gəlirmi? Mənim bu kölə-çap sistemim saat onda bütün Hammurapi kodeksini bitirdi.

Nimvrod:

- Səninki hansındandı ki? Cənnət Vadisindən Apple Nominator-du?

Uruk:

- Sən dəli olmusan? Onları daha, hətta, Tirdəki kölə bazarında tapa bilməzsən. Yox, mənimki Misir kölə-mirzəsidir - Toth 3 Magis-Dos. Çox az, gündə bir ovuc duyu sərf eləyir, həm də heroqliflə yaza bilir.

Nimvrod:

- Amma yaddaşında heç nə qalmır ki...

Uruk:

- Əvəzində surət çıxaran zaman ölçüyə də salır. Daha gil gətirən, cədvəl düzəldən, onu günün qabağında qurudub ölçüyə salan kölə lazım deyil. O düzəldir, odda qurudur, dərhal da yazır.

Nimvrod:

- Amma o, 5,25 Misir dirsəyi uzunluğunda, düz altmış kiloqram çəkisi olan cədvəllərdən istifadə edir. Sən niyə özün üçün yığcam cədvəl tapmırsan?

Uruk:

- Maye büllurun üzərində bir xaldey naxışımı? Volxvlar üçün qəlibdi.

Nimvrod:

- Yox əşşi, əllə yazan kölə-mirzə, sidonlu Afrika cırtdanı. Bilirsən finikiyalılar necə eləyirlər – hər şeyi misirlilərdən götürürlər, amma sonra kiçildirlər. Bax, dostum Lepton elə sənin dizlərinin üstündə oturub yazır.

Uruk:

- O, donqardı, iyrəncliyə bax.

Nimvrod:

- Ancaq onun kürəyinə tez yazmaq üçün bir şey quraşdırıblar. Qırmancı bircə dəfə şaqqıldadırsan – o da sənə lap Alfa-Beta yazır, görürsən qrafik rejim üçün mətni rejimdən istifadə eləyir, iyirmi bir işarə kifayətdi. Hammurapi-nin bütün kodeksini sənin üçün bir neçə 3,5 cədvəlində yerləşdirər.

Uruk:

- Amma sonra şifrəaçan kölə də almaq lazım gəlir.

Nimvrod:

- Elə şey yoxdu. Bu cırtdana şifrəaçan da quraşdırılıb. Qırmancı bir dəfə də şaqqıldadırsan – o, hamısını yazıya köçürür.

Uruk:

- O, qrafiklər də cızır?

Nimvrod:

- Nədi, onun müxtəlif rəngi olduğunu görmürsən? Necə fikirləşirsən, mənim üçün Qüllənin bütün planlarını kim çəkdi?

Uruk:

- Bəs sən ona inanırsan? Birdən hər şey uçdu?

Nimvrod:

- Heç nə olmaz. Mən onu Pifaqorun və Memphis Lotusun yaddaşına yükləmişəm. Ona planı verib qamçını şaqqıldadırsan – sənin üçün üçölçülü zikkurat çəkir. Misirlilərdə ehramların tikintisi zamanı on minlərlə kölə-mirzələrlə linkləşdirilmiş on komandalı «Moicey» sistemi vardı. Onların interfeysləri çox dostcasınaydılar. Bütün köhnəlmiş dəmirləri Qırmızı dənizə atdılar, hətta, su qabardı.

Uruk:

- Bəs saymaq üçün?

Nimvrod:

- O, bürcü də bilir. Bir anda sənə ulduz falını göstərir və what you see is what you get.

Uruk:

- Bahadı?

Nimvrod:

- Hə, əgər burda almaq istəsən, bir kisə toxumluq buğdaya alarsan. Əlbəttə, onu yaxşıca yedirmək lazımdı, çünki özün bilirsən, garbage in – garbage out.

Uruk:

- Yaxşı, mənə bir misirli tamamilə bəs eləyir. Amma əgər sənin cırtdanın mənim 3 Magis Dosum-la dil tapsa, ona bürcləri öyrətməsinə kömək eləyə bilərsənmi?

Nimvrod:

- Bu, qeyri-qanunidi: alanda zəmanət verməlisən ki, onu yalnız fərdi istifadə üçün alırsan… Hə, yaxşı, onsuz da hamı belə eləyir, gəl onları bir-birinə qoşaq. Ancaq istəmirəm ki, səninkində virus olsun.

Uruk:

- O, öküz kimi sağlamdı. Məni daha çox başqa bir şey qorxudur: hər gün yeni şivələr peyda olur, axırda proqramlar qarışacaq.

*Tərcümə:*

**Nəriman Əbdülrəhmanlı**



## DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

*TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.*




# KEÇMİŞ VİBLİNQEN MONASTIRININ KİTABXANASI

Keçmiş Viblinqen monastırının kitabxanası dünyanın ən gözəl kitabxanaları sırasına daxildir. Kitabxana monasırın əsası qoyulan **1093**-cü ildən formalaşmağa başlamışdır. Rəsmi açılışı **1744**-cü ildə olmuşdur. Həmin vaxt kitabxana **15** min nadir əlyazmasına malik idi. Hazırda dünyanın ən zəngin kitabxanalarından biridir.

Xəzər Universitetinin kollektivi Xəzər Universiteti Nəşriyyatının direktoru
Zakir N. Yusifoğluna anası
**Safa Novruz qızı Nəbiyevanın**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
**Allah rəhmət eləsin!**

## XƏZƏR UNİVERSİTETİ
# "DÜNYA" MƏKTƏBİ SUMQAYITDA




- Xəzər Universitetinin Sumqayıtda yeni fəaliyyətə başlayan Dünya Məktəbi şagird qəbulu elan edir:

- Məktəbəqədər hazırlıq (5-6 yaş) - Azərbaycan, rus, ingilis dillərində
- Tədris bütün siniflər üzrə - Azərbaycan, rus dillərində
- İB Proqramları üzrə təhsil ingilis dilində
- İB diplomu əldə edən məzunlar dünyanın tanınmış universitetlərində birbaşa bakalavr təhsili almaq imkanı əldə edirlər.
- Məktəbdə Amerika universitetlərinə qəbul imkanı verən SAT kursları və SAT test mərkəzi fəaliyyət göstərir.
- Qəbul imtahanlarında yüksək nəticə göstərən şagirdlər güzəştli ödənişlə təhsil almaq hüququ qazanırlar.
- Keyfiyyətli təhsil almaq üçün zəngin kitabxana,müasir avadanlıqlarla təchiz olunmuş sinif otaqları və laboratoriyalar mövcuddur.
- Şagirdlərin hərtərəfli inkişafını təmin edən idman, rəqs, dram, musiqi və müxtəlif dərnəklər
- Şagirdlər sağlam qidalanır, məktəbə rahat və təhlükəsiz gediş-gəliş üçün avtobus xidməti ilə təmin edilirlər.



Ünvan: Sumqayıt şəhəri,
44-cü məhəllə, Bakı küçəsi

Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33
(+994 50) 669 86 33

E-mail: info@dunyaschool.az
www.dunyaschool.az



## Valideynlərin və şagirdlərin nəzərinə!

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (International Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

# Dünya məktəbi

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

# Məktəbəqədər hazırlıq

2016-2017 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az



**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər
- Turizm və otelçilik

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tercümə (ingilis dili ve diger diller)
- Dizayn

**IV qrup üzrə:**

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya
- Kimya ve biologiya müəllimliyi

**Universitetdə kadr hazırlığı aparılan bütün ixtisaslarda ödənişsiz və ya dövlət hesabına təhsil almaq mümkündür.**


Ünvan: Məhsəti küçəsi, 41
Əlaqə telefonları: (012) 421-68-11, (012) 417-91-33,
·Faks: (012) 498-93-79
·Email: contact@khazar.org
http//www.khazar.org


# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan, xaricə ən çox tələbə göndərən, xaricdən oxumağa tələbələrin ən çox gəldiyi, xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti öz tədris proqramlarının müasirliyi, verdiyi təhsilin keyfiyyəti və ciddiliyi, geniş beynəlxalq əlaqələri ilə həm Azərbaycanda, həm də onun hüdudlarından çox-çox uzaqlarda geniş hörmət və nüfuz qazanmışdır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

2016-cı il iyunun 14-də **QS** (World University Rankings) təşkilatı inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycanın ən yaxşı ali məktəbi seçilməklə yanaşı, göstərilən bölgənin ilk 70 ali təhsil müəssisəsi arasında yer almış yeganə Azərbaycan universitetidir.

2016-cı il senyabrın 6-da **QS** (World University Rankings) təşkilatı dünya üzrə ali təhsil müəssisələrinin 2016-2017-ci il üçün reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti dünya universitetləri sırasında 701+ yeri, Azərbaycan universitetləri arasında isə 1-ci yeri tutmuşdur.

**Universitetin maddi-texniki bazası**

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

**Təhsil və karyera imkanları**

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi və xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

**Təhsil haqqının ödənilməsində güzəştlər**

Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
450-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**